QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 164 (6364) 11 sentyabr 2021-ci il Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# Prezident İlham Əliyev "Kəlbəcər" neftdaşıyan tankerin istismara verilməsi mərasimində iştirak edib



## Mikayıl Cabbarov: "Zəngəzur dəhlizinin reallaşması istiqamətində fəal işlər aparılır"

Bax 3



## Anna Akopyan: "Rusiya bizim düşmənimizdir, üzümüzü Qərbə tutmalıyıq"



Bax 5

44 günlük müharibənin ilk günlərində Nikol Paşinyanın xanımı Anna Akopyanın Rusiya əleyhinə sərt fikirlər səsləndirməsi...



## ŞOK: Azərbaycan əhalisi bu il içki və siqaretə 1,4 milyard manat xərcləyib!

*Bu ilin yanvar-avqust aylarında Azərbaycanda istehlakçılar tərəfindən içkilər və tütün məmulatlarına 1,378 mlrd. manat xərclənib...* Bax 10

## "Siyasi partiyalar: Zəfər, yeni reallıq və dialoq" - Partiya sədrləri nəyi müzakirə ediblər?




Bax 11

## "Human Rights Watch" Ermənistanın Azərbaycana qarşı törətdiyi müharibə cinayətlərindən bəhs edən hesabat yayımlayıb

"İki sahil" xəbər verir ki, hesabatda bildirilib ki, müharibənin ilk günü Ermənistanın atdığı mərmi Azərbaycanın Naftalan şəhərində 13 yaşlı Şəhriyar Qurbanovu...



## Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilib

Bax 4



Yeni Azərbaycan Partiyası Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov iclasın gündəliyi barədə məlumat verib. İclasda ilk olaraq Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasının, Gənclər...

## Ali siyasi iradənin təzahürü - milli həmrəylik

Bax 3

*Azərbaycan hazırda çoxəsrlik tarixinin ən şərəfli dövrünü yaşayır və Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qalib dövlət, qalib xalq olmağımızla Azərbaycan dövlətçiliyi tarixində mahiyyət etibarilə tamamilə yeni inkişaf mərhələsi başlayıb ki, bu yeni dövr, bu yeni inkişaf mərhələsi siyasi partiyalar tərəfindən...*



## Böyük bəstəkar Arif Məlikov - milyonların sevimlisi



*Bir ömrün məktəbini zəngin edən, ona naxış salan sənətə olan ilahi sevgi, əməllər, istedad, bacarıq və zəhmətdir. Bu ömür paylandıqca insanın əfsanəyə çevrilən nurlu əməlləri dünyaya işıq saçır, onu rövnəqləndirir...*

Bax 12

## Qarabağ ermənilləri Ermənistana yox, Azərbaycana ümid bəsləyirlər




## Paşinyan geri çəkildi: Azərbaycan Zəngəzur dəhlizini açacaq



Bax 14

## Mobil telefonu yataq otağında saxlamayın



Bax 16

## Şenol Güneş istefaya göndərildi!



Bax 16

# Prezident İlham Əliyev "Kəlbəcər" neftdaşıyan tankerin istismara verilməsi mərasimində iştirak edib













***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı gəmiqayırma zavodunda "Kəlbəcər" neftdaşıyan tankerin istismara verilməsi mərasimində iştirak edib. AZƏRTAC xəbər verir ki, bu neftdaşıyan tankerin tikintisinə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sifarişi ilə Bakı gəmiqayırma zavodunda 2 il əvvəl başlanılıb. Prezident İlham Əliyevin təşəbbüsü ilə tanker "Kəlbəcər" adlandırılıb.***

Qeyd edək ki, Prezident İlham Əliyev bir müddət əvvəl işğaldan azad edilən Kəlbəcərdə üçrəngli Azərbaycan bayrağını dalğalandırdı. İndi isə üçrəngli Azərbaycan bayrağı altında beynəlxalq sularda üzəcək "Kəlbəcər" neft tankerinin istismara verilməsi mərasimində iştirak edib. Bunun çox böyük rəmzi mənası var.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin sədri Rauf Vəliyev dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Dünyada pandemiyanın davam etməsi və iqtisadi-maliyyə böhranının yaratdığı problemlər fonunda Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatının bütün sahələrinin inkişafı tam təmin olunur. Bu gün Azərbaycan strateji əhəmiyyətə malik məhsulları artıq özü istehsal edir. Bakı gəmiqayırma zavodunda gəmilərin istehsalı, o cümlədən "Kəlbəcər" neftdaşıyan tankerinin inşa olunaraq istismara verilməsi bunun əyani təzahürüdür. Şübhəsiz ki, bu cür mühüm əhəmiyyətə malik istehsalın ölkəmizdə təmin olunması iqtisadi qüdrətimizi və Azərbaycanda icra olunan böyük sosial-iqtisadi infrastruktur layihələrinin ardıcıl şəkildə davam etməsini nümayiş etdirməklə gəmiçiliyin fəaliyyətinin şaxələndirilməsi ilə bağlı görülən işlərin həcmini aydın şəkildə göstərir.

Dövlətimizin başçısı tankerin istifadəyə verilməsini bildirən rəmzi lenti kəsdi.

"Kəlbəcər" neftdaşıyan tankerinin inşası, eyni zamanda, son illərdə yeni gəmilərin tikintisi və donanmaların yenilənməsi istiqamətində həyata keçirilən genişmiqyaslı tədbirlərin tərkib hissəsidir. Gəmiçiliyin Strateji İnkişaf Planına uyğun olaraq son illərdə 18 gəmi istismara verilib. Bu da ölkəmizin Xəzərdə aparıcı mövqeyinin qorunub saxlanılmasında, Azərbaycan ərazisindən artan tranzit yükdaşımalarına yaranan tələbatın ödənilməsində və dənizdə neft-qaz layihələrinin uğurla icrasında mühüm rol oynayır.

Uzunluğu 141 metr, eni 16.9 metr olan "Kəlbəcər" tankerinin daimi heyəti 15 nəfərdən ibarətdir. Dedveyti - yükgötürmə qabiliyyəti 7,800 ton olan tankerdə dünyanın aparıcı şirkətlərinin avadanlıqları quraşdırılıb. Tankerin texniki göstəriciləri, xüsusilə suya oturumu digərləri ilə müqayisədə, maksimum yük götürməklə Xəzər hövzəsində nisbətən dayaz limanlara daxil olmağa və Xəzərdən kənara yük daşımasına imkan yaradır.

Yeni tanker Bakı gəmiqayırma zavodunun 2019-cu ildə təhvil verdiyi və hazırda Qara dəniz-Aralıq dənizi hövzələrində üzən "Laçın" tankeri ilə eyni tiplidir. Bu tip 4 tanker sifariş verilib ki, hazırda yerli mütəxəssislər tərəfindən ikisinin tikintisi davam etdirilir. Ümumilikdə, zavoda 10 yeni gəminin tikintisi ilə bağlı sifariş verilib ki, onların da artıq altısının, o cümlədən 1 yedək, 3 sərnişin, 1 Ro-Pax tipli gəmi-bərənin və 1 tankerin tikintisi başa çatdırılaraq istismara verilib. Hazırda daha 2 neft tankeri ilə yanaşı, Ro-Pax tipli bir gəmi-bərənin inşası davam etdirilir. Gəmilərin tikintisi əsasən Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin mənfəəti hesabına maliyyələşir. Bu da yerli gəmi tikintisi sənayesinin inkişafına töhfə verir.

Hazırda Qara dəniz və Aralıq dənizi hövzələrində Azərbaycan bayrağı altında 8 quru yük gəmisi və 3 tanker olmaqla, 11 gəmi istismar olunur. Heyətləri yalnız yerli mütəxəssislərdən ibarət olan bu gəmilər tanınmış dövlət-mədəniyyət xadimlərimizin, rayon və şəhərlərimizin adlarını daşıyır. Bu ilin sonunadək "Prezident Heydər Əliyev", "Kəlbəcər" və "Şuşa" tankerlərinin də Xəzərdən kənarda, o cümlədən Baltik və Şimal dənizlərinə çıxışı təmin olunacaq.

# Ali siyasi iradənin təzahürü - milli həmrəylik

**Azərbaycan hazırda çoxəsrlik tarixinin ən şərəfli dövrünü yaşayır və Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qalib dövlət, qalib xalq olmağımızla Azərbaycan dövlətçiliyi tarixində mahiyyət etibarilə tamamilə yeni inkişaf mərhələsi başlayıb ki, bu yeni dövr, bu yeni inkişaf mərhələsi siyasi partiyalar tərəfindən yüksək qiymətləndirilir. Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın müddət ərzində davam edən təcavüz və işğal siyasətinə ölkə başçısının rəhbərliyi ilə son qoyulması siyasi partiyalar arasında dialoq mühitinn daha da yaxşılaşdırılmasına əsaslı zəmin yaratdığı günün reallığıdır.**



Plüralist cəmiyyətin mövcudluğu ölkədə demokratiyanın varlığını təsdiq edir və hazırda ölkəmizin ictimai-siyasi həyatında daim rəqabətdə və mübarizədə olan sosial, siyasi qrupların, partiyaların, təşkilatların, ideyaların və baxışların çoxluğu Azərbaycanda demokratiyanın dinamik olaraq, yüksələn xətt üzrə inkişafından xəbər verir və sosial-siyasi münasibətlərin dirçəliş meyillərinin inkişafını da stimullaşdırır. Sosial qrup və təbəqələrin müxtəlifliyi şəraitində formalaşan, hüquqi dövlət quruculuğu və demokratiyanın ölçülməsində əsas indiqatorlardan sayılan plüralizm ölkədə demokratik mexanizmlərin mövcudluğunun əsas şərtlərindən biri kimi qəbul edilir və bu indiqatorlar üzrə qlobal hesabatlarda durmadan irəliləyən Azərbaycanda artıq siyasi partiyaların siyasi dialoq mühitinin təşviqinə xidmət edən müxtəlif səpkili layihələrdə fəal iştirak etməsi milli həmrəylik nümayiş etdirməsi deməkdir. Bu baxımdan 9 sentyabr tarixində Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin ölkədə fəaliyyət göstərən 45 siyasi partiyanın rəhbərləri ilə "Siyasi partiyalar: Zəfər, yeni reallıq və dialoq" mövzusunda keçirdiyi görüş, milli həmrəylik nümayişi kimi xüsusi diqqətə layiqdir.

Hər bir cəmiyyətdə, hər bir dövlət daxilində müxtəlif partiyaların, fərqli siyasi baxışların olması normaldır və hətta bu hal ölkədə demokratiyanın varlığını təsdiqləyir. Beləki, alternativ fikirlərin, fərqli yanaşmanın olması rəqabət mühitinin yaranmasına, nəticədə isə daha sağlam mühitin formalaşmasına əsaslı zəmin yaradır. Yəni, təkpartiyalılıqdan fərqli olaraq çoxpartiyalı sistem yekunda cəmiyyətin daha sağlam yetişməsini, daha doğru yola istiqamətlənməsini şərtləndirir. Bütün dünya ölkələrində hakimiyyətə müxalif qüvvələr, partiyalar, qurumlar mövcuddur və bu, tamamilə normal qarşılanır. Əvvəla, demokratik cəmiyyət üçün belə bir hal qəbulolunan, hətta arzuolunandır. Digər tərəfdən isə, məhz sağlam müxalif qüvvələrin, qurumların, təşkilatların, müxalifət partiyalarının olması sayəsində fərqli fikirlər, ideyalar, təkliflər ortaya çıxa bilir ki, bu da ən sonda dövlət, cəmiyyət üçün sağlam rəqabət mühiti, eləcə də inkişaf deməkdir.

Ölkəmizdə də çoxpartiyalı sistem mövcuddur və siyasi partiyaların mövcudluğu, fəaliyyəti üçün münbit şərait yaradılıb. Belə bir şərait cəmiyyətin ən ümdə azadlığı, söz, ifadə, fikir azadlığının, plüralizmin mövcudluğu, demokratiyanın daha da inkişafı üçün yaradılıb. Təbii ki, bütün bunlar dövlət siyasətinin qayəsini təşkil edir və vətəndaş amili birinci yerdə olan Azərbaycan dövlətində söz, fikir, ifadə, məlumat azadlığı olmaqla, cəmiyyətin bütün hüquq və azadlıqları qorunur. Bunu da diqqətə çatdıraq ki, ölkəmizdə plüralizm məhz dövlətin diqqət və qayğısı, yaratdığı şərait sayəsində formalaşıb və göründüyü kimi bu şərait günü-gündən yaxşılaşdırılır.

Əlbəttə ki, hər yerdə olduğu kimi, ölkəmizdə də siyasi partiyalar üçün yaradılan şəraitdən, plüralizm mühitindən, söz, fikir, ifadə azadlığından sui istifadə hallarına da rast gəlinir və göründüyü kimi, ictimai qınağa da səbəb olur. Bəzi dırnaqarası demokratik qüvvələr, özünü xalqın təəssübkeşi kimi qələmə verməyə çalışan, əslində isə, anti-Azərbaycan şəbəkənin marianeti olaraq davranan, əvəzində vəsait alan, bir sözlə, kimlərə isə satılmış qüvvələr də var və onların fəaliyyəti cəmiyyətimiz tərəfindən nifrətlə qarşılanır. Çünki, onlar ölkəmizin inkişafı, tərəqqisi, uğur və nailiyyətləri üçün çalışmırlar və onlar yalnız pozucu fəaliyyətlə məşğul olur, Azərbaycanın beynəlxalq aləmdə durmadan artan nüfuzuna belə xələl gətirməyə can atırlar, bu yolda ən çirkin əməllərdən belə çəkinmirlər. Bu isə demokratiya yox, anarxiyadır və sevindirici haldır ki, cəmiyyətimizdə belələri sayca kifayət qədər azdır. Əksinə, bu gün ölkəmizin, dövlətimizin, xalqımızın, cəmiyyətimizin inkişafı naminə həmrəylik nümayiş etdirən qurumlar, təşkilatlar, siyasi partiyalar kifayət qədərdir və onların həmrəyliyi Azərbaycan cəmiyəti tərəfindən bəyənilir, dəstəklənir.

Cənab Prezident İlham Əliyevin sistemli və çoxşaxəli inzibati-siyasi islahatlarının nəticəsində sağlam iqtidar-müxalifət dialoqunun, yeni siyasi konfiqurasiyanın qurulduğu günün reallığıdır. Məhz ölkədə fəaliyyət göstərən 45 siyasi partiyanın rəhbərləri ilə 9 sentyabr tarixində keçirilən görüş bu reallığın bariz nümunəsidir. Onu da diqqətə çatdırmaq yerinə düşərdi ki, iqtidar-müxalifət dialoqu nəticəsində cəmiyyətdə yeni yanaşma müşahidə olunmaqdadır. Beləki, siyasi partiyaların respublikanın ictimai-siyasi həyatında daha yaxından iştirakının təmin edilməsi məqsədilə siyasi partiya liderləri müxtəlif mətbuat orqanlarında və televiziya kanallarında çıxış etmək üçün dəvət olunurlar. Təbii ki, bu zaman yeni-yeni təkliflər ortaya çıxa bilir ki, nəticə etibarı ilə ümumi işin xeyrinə, milli maraqların qorunmasına hesablanmış olur. Məhz bu baxımdan da, heç şübhəsiz ki, belə görüşlərin bundan sonra da mütəmadi keçiriləcəyi gözləniləndir və təqdirəlayiqdir.

Nəzərə almaq və unutmamaq lazımdır ki, Ali Baş Komandanın, Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan 44 günlük müharibədə Ermənistana həm də birliyimiz sayəsində qalib gəlib. Milli həmrəylik, birlik işğalçıların torpaqlarımzdan qovulmasında əsaslı rol oynamış olub. Bu həmrəylik, bu birlik sayəsində 30 il işğal altında qalan torpaqların geri qaytarılması reallaşıb. Hal-hazırda işğaldan azad olunan həmin torpaqlarda abadlıq-quruculuq işlərinin, infrastruktur layihələrinin həyata keçirilməsi də birliyimiz sayəsində reallaşır. Daha dəqiq desək, bütün dünya bizim milli birliyimizin şahidi olub və bu gün də şahididir. Hətta 44 günlük Vətən müharibəsi milli həmrəyliyimizi, Azərbaycan xalqının ümummilli məsələlərdə hər zaman birləşməyə hazır olduğunu bütün dünyaya göstərdi.

Göründüyü kimi, milli həmrəylik, birlik öz bəhrəsini verməkdədir və Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq ölkədə milli həmrəylik və sağlam siyasi münasibətlərə köklənmiş siyasi dialoqun qurulması istiqamətində əldə olunmuş uğurların bundan sonra da davam edəcəyinə zərrə qədər şübhə yoxdur. Azərbaycanda çoxpartiyalılığın inkişafına yönəlmiş addımlar ali siyasi iradənin təzahürüdür və hər hansı amilə görə ayrı-seçkilik qoymadan, iqtidarın bütün siyasi partiyalar ilə dialoqa və əməkdaşlığa hazır olduğu təkzib edilə, danıla bilməz. Heç şübhəsiz ki, ölkədə davamlı sabitliyin qorunması və dövlətin inkişafı naminə bütün imkanların səfərbər olunmasında siyasi dialoq mühitinin əhəmiyyəti böyükdür və bu istiqamətdə sağlam əməkdaşlığın davam etdirilməsi çox vacibdir. Bu baxımdan qısa müddət ərzində əldə olunmuş uğurlu əməkdaşlıq nümunələrinin sayının artırılması, dayanaqlı dialoq ənənələrinin daha da dərinləşdirilməsi məqsədəuyğundur və bütün səylərin ölkənin inkişafı və xalqın rifahına yönəldilməsi daha böyük, müsbət nəticələr vəd edir.

***İnam Hacıyev***



# "Türk Şurası güclənərək vacib beynəlxalq quruma çevrilib"

## *Baş nazir Əli Əsədov Türk Şurasının nümayəndə heyəti ilə görüşüb*

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov sentyabrın 10-da Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə ötən müddət ərzində Türk Şurasının güclənərək vacib beynəlxalq quruma çevrildiyi, dünya miqyasında nüfuzunun artdığı məmnuniyyətlə qeyd edilib.

Azərbaycanın Türk Şurasına üzv ölkələrlə həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlıq etdiyi bildirilib.

Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə, həmçinin Vətən müharibəsi zamanı ölkəmizə verilən siyasi-mənəvi dəstəyə görə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına və təşkilata üzv dövlətlərə minnətdarlıq ifadə olunub. Müharibənin ilk günlərindən qardaş Türkiyə Respublikasının birmənalı dəstəyinin əhəmiyyəti xüsusi vurğulanıb. Azərbaycan torpaqlarının işğaldan azad edilməsilə açılan imkanlara toxunulub, Zəngəzur dəhlizinin əhəmiyyəti qeyd edilib.

Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə ötən il Türk Şurasının koronavirus pandemiyası ilə mübarizəyə həsr olunmuş fövqəladə Zirvə görüşü türkdilli dövlətlərin həmrəyliyinin növbəti bariz göstəricisi kimi dəyərləndirilib.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının iqtisadiyyat nazirlərinin 10-cu iclasının və Türk Biznes Forumunun Bakıda keçirilməsi yüksək qiymətləndirilib. Forumun Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpasına həsr olunmasının xüsusi əhəmiyyət kəsb etdiyi bildirilib. Tədbirlər çərçivəsində qəbul olunmuş qərarların və imzalanmış sənədlərin üzv ölkələr arasında müxtəlif sahələrdə, xüsusilə də iqtisadi-ticari və investisiya sahələrində əməkdaşlığın genişlənməsinə töhfə verəcəyinə əminlik ifadə olunub.

# Mikayıl Cabbarov: "Zəngəzur dəhlizinin reallaşması istiqamətində fəal işlər aparılır"

***Zəngəzur dəhlizinin reallaşması regional əməkdaşlığı və sabitliyi möhkəmləndirəcək. "İki sahil" xəbər verir ki, bunu işğaldan azad olunmuş Qarabağ bölgəsinin bərpası və inkişafına həsr olunmuş Türkdilli dövlətlərin biznes forumunda çıxış edən Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov deyib.***




Onun sözlərinə görə, Azərbaycanın əsas hissəsi və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin qurulmasında maneələrin aradan qaldırılması ilə region ölkələrinin faydalana biləcəyi yeni avtomobil və dəmiryol şəbəkələrinin formalaşdırılması imkanı yaranıb. "Hazırda Zəngəzur dəhlizinin reallaşması istiqamətində fəal işlər aparılır. Bu potensialın reallaşması yeni nəqliyyat marşrutlarının fəaliyyətə başlamasına gətirib çıxaracaq, regional əməkdaşlığı və sabitliyi möhkəmləndirəcək", - deyə nazir əlavə edib.

# Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilib

## *Sentyabrın 10-da Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilib*










***Yeni Azərbaycan Partiyası Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov iclasın gündəliyi barədə məlumat verib.***

İclasda ilk olaraq Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasının, Gənclər Birliyinin, Mərkəzi Aparatının və yerli təşkilatlarının əsasnamələrinin təsdiq edilməsi haqqında məsələyə baxılıb. YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bu barədə məlumat verdikdən sonra hər bir əsasnamə ayrı-ayrılıqda müzakirəyə çıxarılaraq təsdiq olunub.

Sonra Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının tərkibinə kooptasiya yolu ilə yeni üzvlərin daxil edilməsinə baxılıb və Hacıbala Abutalıbov, Şəmsəddin Xanbabayev və Tağı Əhmədovun YAP Veteranlar Şurasına üzv qəbul edilməsi haqqında qərar qəbul edilib.

İclasda növbəti məsələ isə Bakı şəhərinin rayonları üzrə Yeni Azərbaycan Partiyasının yerli təşkilatlarının sədrlərinin vəzifəyə təyin edilməsi olub. Qeyd edilib ki, Yeni Azərbaycan Partiyasının yeni Nizamnaməsinə əsasən partiyanın yerli təşkilatları yeni prinsiplər əsasında formalaşdırılmalıdır. Eyni zamanda Nizamnaməyə əsasən partiya strukturunda vəzifə tutan şəxs digər vəzifə daşıya bilməz. Bütün bu tələblərdən irəli gələrək YAP-ın yerli təşkilatlarına yeni sədrlərin seçilməsi ehtiyacı yaranıb. İclasda məsələ müzakirə olunub və Nağıyev Muxtar Teymur oğlu Səbail rayon təşkilatına, Süleymanov Azər Abdul oğlu Nəsimi rayon təşkilatına, Nəbiyev Bəxtiyar Eyvaz oğlu Yasamal rayon təşkilatına, Vəliyev Samir Əhməd oğlu Nərimanov rayon təşkilatına, Rəhimzadə Vüqar Gəncəli oğlu Xətai rayon təşkilatına, Vəlibəyov Ramil Vaqif oğlu Nizami rayon təşkilatına, İsmayılov Vüsar Qəşəm oğlu Binəqədi rayon təşkilatına, Vəliyev Misirxan İzzət oğlu Sabunçu rayon təşkilatına, Seyidov Vüqar Səməndər oğlu Suraxanı rayon təşkilatına, Əhmədov Namiq Məcid oğlu Xəzər rayon təşkilatına, Əliyev Qafar Məmməd oğlu Qaradağ rayon təşkilatına, Abasov Emil Tofiq oğlu Pirallahı rayon təşkilatına sədr təyin olunublar.

İclasda sonra Yeni Azərbaycan Partiyasının təsis etdiyi ”Yeni Azərbaycan” qəzetinə yeni baş redaktorun təyin edilməsi məsələsi müzakirə olunub. Qeyd olunub ki, uzun illər ”Yeni Azərbaycan” qəzetinin baş redaktoru vəzifəsində çalışmış Milli Məclisin deputatı Hikmət Məmmədov YAP-ın Mərkəzi Aparatı ilə Milli Məclisdə təmsil olunan deputat qrupu arasında əlaqələndirici müəyyən edilib. Buna görə də ”Yeni Azərbaycan” qəzetinə yeni baş redaktorun təyin olunması zərurəti yaranıb.

Müzakirələrdən sonra Alqış Musayevin ”Yeni Azərbaycan” qəzetinin baş redaktoru vəzifəsinə təyin olunması haqqında qərar qəbul olunub.

İclasda Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı bir sıra məsələlərə də baxılıb və müvafiq qərarlar qəbul edilib.

İclasda həmçinin Yeni Azərbaycan Partiyasının VII Qurultayından sonra YAP üzvlüyündən xaric edilmiş şəxslər haqqında YAP rayon (şəhər) təşkilatlarının qərarları təsdiqlənib və YAP Binəqədi rayon təşkilatının sabiq sədri Ramiz Göyuşovun geniş ictimai qınağa səbəb olmuş hərəkəti ilə bağlı məsələ müzakirə olunub.

Məsələ ilə bağlı İdarə Heyətinin üzvlərindən Azər Badamov, Elmar Qasımov, Hikmət Məmmədov, Musa Quliyev, Bayram Aslanov, Bahar Muradova, Tofiq Cahangirov, Eldar İbrahimov, Anar İsgəndərov və Rəşad Mahmudov çıxış edərək qeyd ediblər ki, sosial şəbəkələrdə yayılmış videogörüntülərdə Ramiz Göyüşovun etikadan kənar, əxlaqa zidd hərəkəti YAP üzvləri tərəfindən dərin təəssüf hissi ilə qarşılanıb, eyni zamanda cəmiyyətimizdə hiddətlə qınanılıb. Bildirilib ki, onun Azərbaycan ziyalısı adına layiq olmayan, qeyri-etik, milli-mənəvi dəyərlərdən uzaq davranışı yolverilməzdir. Ramiz Göyüşov bu qeyri-etik davranışı ilə partiyanın nüfuzuna xələl gətirdiyinə görə partiya sıralarından xaric edilməlidir.

İdarə Heyəti edilən çıxışlarda səslənən fikirləri və irəli sürülən təklifləri nəzərə alaraq Ramiz Göyüşovun YAP sıralarından xaric olunması barədə yekdil qərar qəbul edib. Sonda cari məsələlər müzakirə olunub.

# Sabirabadda Ümumrespublika “Xəmsə” Festivalının II regional turu keçirilib

***Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin təşkilatçılığı ilə ”Nizami Gəncəvi ili”nə həsr olunmuş Ümumrespublika ”Xəmsə” Festivalının II regional turu keçirilib. Sabirabadda təşkil edilən turun final iştirakçıları müəyyən olunub.***









Əvvəlcə tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstələri düzüblər. Sonra Heydər Əliyev adına parkda keçirilən regional turda yarışın açılış mərasimi olub.

YAP Sabirabad rayon təşkilatının sədri Məleykə Ağayeva çıxış edərək, dövlətimizin başçısı İlham Əliyevin 2021-ci il 5 yanvar tarixli Sərəncamı ilə 2021-ci ilin ölkəmizdə ”Nizami Gəncəvi İli” elan edildiyini diqqətə çatdırıb. Bildirib ki, paytaxt və bölgələrdə bununla bağlı silsilə tədbirlər keçirilir, gənclərin Nizami yaradıcılığı barədə daha dolğun məlumatlar əldə etmələri üçün geniş imkanlar yaradılır.

Diqqətə çatdırılıb ki, Nizami dühası hər zaman dünya şərqşünaslığının diqqət mərkəzində olub, Nizami yaradıcılığının öyrənilməsi və tanıdılması sahəsində xeyli iş görülüb. Nizaminin ədəbiyyatda və incəsənətdə yaddaqalan obrazı yaradılıb. Mütəfəkkir şairin doğma şəhəri Gəncədə məqbərəsi ucaldılıb. Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutu və Milli Azərbaycan Ədəbiyyatı Muzeyi Nizami Gəncəvinin adını daşıyır. Nizami Gəncəvinin yubileyləri ölkəmizdə hər zaman təntənə ilə qeyd edilir. Prezident İlham Əliyevin dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illiyini nəzərə alaraq, 2021-ci ili ”Nizami Gəncəvi İli” elan etməsi də bunun bariz nümunəsidir.

YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov intellektual festivalın məqsədinin Azərbaycan gəncliyinin dünyagörüşünə, fərdi inkişafına töhfə vermək, onlar arasında mövcud əlaqələri inkişaf etdirmək və milli-mənəvi dəyərlərimizə, tariximizə bağlı vətəndaş kimi formalaşmalarına dəstək vermək olduğunu bildirib. Qeyd edib ki, Azərbaycanın bütün regionlarını əhatə edəcək festivalda, ümumilikdə, 420 gənc iştirak edəcək. Yeni Azərbaycan Partiyasına üzv və bitərəf gənclərdən formalaşdırılmış 84 komanda festival çərçivəsində 9 regional turda mübarizə aparacaq.

Bəxtiyar İslamov vurğulayıb ki, bu turda Sabirabad, eləcə də ətraf şəhər və rayonlardan ümumilikdə, 10 komanda iştirak edir. Sabirabad, Saatlı, Hacıqabul, İmişli, Beyləqan, Neftçala, Salyan, Şirvan, o cümlədən Xocavənd və Füzulini təmsil edən bitərəf və YAP üzvü olan gənclərdən formalaşmış komandaların iştirakı ilə keçirilən II regional turun nəticəsində 2 komanda növbəti mərhələyə vəsiqə qazanacaq.

YAP Gənclər Birliyinin sədri, eyni zamanda, bu cür tədbirlərin Azərbaycan gəncliyinin tariximiz, ədəbiyyatımız, milli-mənəvi dəyərlərimiz barədə zəngin biliklər əldə etmələri üçün əhəmiyyətindən danışıb.

Sonra dahi Azərbaycan şairinin bəşəriyyətə bəxş etdiyi ”Xəmsə” əsasında intellektual yarışmalara start verilib. Yarışmanın sonunda qaliblər müəyyənləşib, İmişli və Hacıqabul rayonlarını təmsil edən komandalar final mərhələsində iştirak etmək şansı qazanıblar.

Qeyd edək ki, sentyabr ayı ərzində davam edəcək layihənin finalının Gəncə şəhərində keçirilməsi nəzərdə tutulub.

# XİN: "Ermənistan işğal dövründə mindən çox təhsil müəssisəsi və uşaq bağçasını tamamilə məhv edib"



***Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam etmiş silahlı təcavüzü zamanı Azərbaycanın təhsil infrastrukturuna ciddi ziyan vurulub, mindən çox təhsil müəssisəsi və uşaq bağçası tamamilə məhv edilib. SİA-nın məlumatına görə, bu barədə XİN-nin 9 sentyabr - Təhsilin Hücumlardan Beynəlxalq Müdafiəsi Günü ilə bağlı bəyanatında deyilir.***

Qeyd edilir ki, Uşaq Hüquqları Konvensiyasının və onun Uşaqların Silahlı Münaqişələrə cəlb edilməsinə dair Əlavə Protokolunun, habelə 1949-cu il Müharibə Qurbanlarının Müdafiəsi üzrə Cenevrə Konvensiyalarının tərəfi olan Azərbaycan Respublikası uşaq hüquqlarının səmərəli müdafiəsinin təmin edilməsinə və silahlı münaqişələrdən əziyyət çəkən uşaqların vəziyyətinin yaxşılaşdırılmasına yönəlmiş beynəlxalq səylərə qətiyyətlə və davamlı olaraq dəstək verir.

Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam etmiş silahlı təcavüzü zamanı Azərbaycanın təhsil infrastrukturuna ciddi ziyan vurulub, mindən çox təhsil müəssisəsi və uşaq bağçası tamamilə məhv edilib. Yüz minlərlə azərbaycanlı qaçqın və məcburi köçkün oğlanlar və qızlar Ermənistanın hərbi təcavüzündən irəli gələn ciddi problemlərin təsiri altında təhsil hüquqlarını həyata keçirə biliblər. Azərbaycan ərazisindəki təhsil müəssisələri Ermənistan silahlı qüvvələri tərəfindən mütəmadi olaraq heç bir fərq qoyulmadan atəşə məruz qalıb və məktəblilər və təhsil personalı təhlükə altında tədris prosesində iştirak edib.

Ötən il baş vermiş 44 günlük müharibə zamanı da Ermənistan beynəlxalq humanitar hüquq normalarını kobud şəkildə pozaraq məktəbləri qəsdən hədəfə alıb, nəticədə 54 məktəbimiz dağıdılıb, 6-15 yaş arası 10 məktəbli faciəvi şəkildə qətlə yetirilib, 16 məktəbli isə yaralanıb.

Münaqişəni geridə qoyaraq, Azərbaycan diqqətini bütün uşaqlarımızın təhsil və potensiallarından təhlükəsiz şəkildə istifadə etmələrinə yönəldib. Hazırda biz azad olunmuş ərazilərimizdə məktəblərimizi yenidən tikirik.

9 sentyabr tarixini Təhsilin Hücumlardan Beynəlxalq Müdafiəsi Günü kimi dünya ictimaiyyəti ilə birgə qeyd edərək, azərbaycanlı məktəblilərə qarşı törətdiyi müharibə cinayətlərinə görə Ermənistanın daşıdığı məsuliyyətini və uşaqların təhlükəsiz şəraitdə təhsil almaq hüququna hörmət edilməsinin vacibliyini bir daha vurğulayırıq. Ermənistandan silahlı qüvvələri tərəfindən törədilmiş müharibə cinayətlərinə dair çoxsaylı faktları araşdırmaq və bu cinayətləri törədənləri məsuliyyətə cəlb etmək beynəlxalq öhdəliklərinə riayət etməyi tələb edirik.

# Hikmət Babaoğlu: Azərbaycanda siyasi dialoq mühiti dərinləşir, yeni siyasi ənənələr yaranır və siyasi sistemin rəng palitrası zənginləşir

***"Sentyabrın 9-da Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsi ölkədə fəaliyyət göstərən 45 siyasi partiyanın rəhbərləri ilə "Siyasi partiyalar: Zəfər, yeni reallıq və dialoq" mövzusunda görüş keçirib.***



Bu görüş siyasi sistemimizdə dialoq mühitinin daha da dərinləşməsi istiqamətində atılan növbəti mühüm addımlardan biridir. Əslində, görüşün mövzusu özlüyündə həm qiymətləndirmə, həm təsbit, həm də çağrış mahiyyəti daşıyır".

Bu fikirləri Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu deyib. Millət vəkilinin sözlərinə görə, əldə etdiyimiz böyük tarixi Zəfər həm də siyasi sistemimizin struktur tərkibi olan siyasi partiyaların həmrəylik nümayiş etdirməsi və tarixi sınaq qarşısında milli maraqlar ətrafında bilik nümayiş etdirə bilməsi sayəsində reallığa çevirilib: "Biz artıq yeni reallıqda yaşayan müzəffər xalq kimi siyasi münasibətlərimizdə də yeni keyfiyyət mərhələsinə qədəm qoymaqdayıq. Ona görə də bu məsələyə diqqət çəkən Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev görüşdə iştirak edən siyasi partiya rəhbərlərinə Prezident İlham Əliyevin adından ölkədə milli həmrəylik, siyasi dialoq mühitinin təşviqinə xidmət edən fəaliyyətlərinə görə təşəkkürünü bildirib. Əlbəttə, siyasi sistemin təkmilləşməsi, onun fəaliyyətinin milli maraqlar ətrafında konsolidasiya olunması demokratik cəmiyyətdə daim ən aktual məsələlərdən biri olmuşdur".

"Görüşdə yadda qalan əsas xüsuslardan biri də siyasi fəaliyyətin yenidən və daha yaxşı təşkili üçün yeni qanunvericilik bazasının yaradılması, siyasi partiyalar haqqında yeni qanunun qəbul edilməsi istiqamətində aparılan müzakirələr olmuşdur. Qeyd edilmişdir ki, ölkəmizdə aparılan və siyasi sistemimizin bütün sahələrini əhatə edən islahatlar nəticəsində qərargahı olmayan 22 siyasi partiya üçün ofislər ayrılıb, 25 siyasi partiyanın qurultaylarının keçirilərək nəticələri dövlət qeydiyyatına alınıb, habelə uzun fasilədən sonra 7 yeni siyasi partiya dövlət qeydiyyatına düşüb. Bütün bunlar isə cəmiyyətdaxili siyasi münasibətlərə müsbət təsir etməklə cəmiyyətdə siyasi proseslərə yeni yanaşma formalaşdırıb. Siyasi partiyaların respublikanın ictimai-siyasi həyatında daha yaxından iştirakının təmin edib. Bütün bunlar isə demokratiya tariximizin yeni mərhələsini təşkil etməklə siyasi münasibətlər sistemimizə rasionallıq və pozitiv siyasi hava gətirib. Ancaq hazırkı postmüharibə mərhələsində qarşımızda olduqca mühüm və tarixi çağırışlar var ki, siyasi sistemimiz iqtidarı və müxalifəti ilə birlikdə bu çağırışın öhdəsindən gəlməyi bacarmalıdır. Ona görə də siyasi dialoq və əməkdaşlıq mühitinin daha da dərinləşməsinə böyük ehtiyac var. Təəssüf ki, bəzi siyasi partiyalar bu ümummilli dialoq platformasından kənarda qalmaqla ölkəmizin ümumi maraqlarına və məqsədlərinə lazımi xidmət göstərməkdən yayınırlar. Bu isə, şübhəsiz ki, siyasi aktiv zümrənin diqqətindən yayınmır və onlara qarşı ictimai qınağa çevirilir",-deyə Hikmət Babaoğlu vurğulayıb.



# Hadrut erməniləri Yerevanda aksiya keçirdi: Bizə ev verin!

Müharibə dövründə Xocavəndin Hadrut qəsəbəsindən qaçan ermənilər Yerevanda etiraz aksiyası keçiriblər. "İki sahil" xəbər verir ki, 100-dən artıq etirazçı Ermənistanda, yaxud Qarabağda onlara mənzil verilməsini tələb edib. Keçmiş Hadrut sakini Tiqran Movsesyan müharibə zamanı bütün əmlakını itirdiyini deyib.

"Biz burda kirayə tutmağa, yaxud qohumlarımızda qalmağa məcburuq. Bizə ev verilsin. Həmçinin, qaçın, yaxud müvəqqəti köçkün olmağımız barədə status da müəyyənləşdirilməlidir",- deyə etirazçılar söyləyib.

# Anna Akopyan: "Rusiya bizim düşmənimizdir, üzümüzü Qərbə tutmalıyıq"

***44 günlük müharibənin ilk günlərində Nikol Paşinyanın xanımı Anna Akopyanın Rusiya əleyhinə sərt fikirlər səsləndirməsi erməni mənbələrində geniş tirajlanmaqdadır. SİA erməni mediasına istinadən xəbər verir ki, Baş nazirin xanımı müharibənin ilk günlərində ordu komandirləri və sakinlərlə görüşündə bildirib ki, əsrlər boyu özünü bizə müttəfiq kimi sırıyan Rusiya əslində heç də bizim müttəfiq və tərəfdaşımız deyil.***



Anna Akopyanın çıxışından: "Düşdüyümüz indiki durum buna görə baş verir. Rusiya bu səbəbdən bizə müttəfiqdən çox düşməndir. Bu səbəbdən də, biz üzümüzü Qərbə tutmalıyıq".






# “Bu görüş ölkəmizin gələcəyi üçün çox ciddi bir addımdır”

*Partiya sədrləri açıqladı*



“Sentyabrın 9-da Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsi ölkədə fəaliyyət göstərən 45 siyasi partiyanın rəhbərləri ilə ”Siyasi partiyalar: Zəfər, yeni reallıq və dialoq” mövzusunda görüş keçirildi. Bu tədbir Azərbaycanda iqtidar və müxalifət arasında aparılan dialoq prosesini yeni mövcud olan siyasi konfiqurasiyanın davamiyyətinin sübutu idi”. Bu sözləri SİA-ya açıqlamasında Gələcək Azərbaycan Partiyasının sədri Ağasif Şakiroğlu deyib. Onun sözlərinə görə, mütəmadi olaraq ünsiyyətlərin siyasi partiya rəhbərləri ilə Prezident Administrasiyasının rəsmilərinin davam etdirməsi, müxtəlif mövzularda diskusiyyalarının aparılması, fikir mübadiləsinin aparılması ölkədə demokratik cəmiyyət quruculuğuna atılan davamlı, sistematik addımların və fəaliyyətin nəticəsidir: ”Artıq uzun illərdən sonra 2020-ci ildən etibarən başlanmış yeni dövrü Azərbaycan yaşamaqdadır. Hesab edirəm ki, Azərbaycanın siyasi sistemində bu dialoqun, fikir mübadilələrinin böyük töhfəsi olacaqdır. Hal-hazırda baş verən proseslər Azərbaycan tarixinin qızıl hərflərlə yazılası günləridir. Təbii ki, bu tipli görüşlərin davamlı olmasını arzulayırıq və hesab edirik ki, bu tip dialoq mühiti ilə bu tip sivil münasibətlər sistemini formalaşdırmaqla ölkəmizi yalnız inkişafa apara bilərik. Ölkəmizdə nəhayət siyasi mədəniyyət formalaşmaqdadır. Çox təəssüflər ki, bu dialoqun, siyasi mədəniyyətin formalaşmasını arzulamayan müəyyən qüvvələr var. Hesab edirəm ki, ölkəmizin, dövlətimizin parlaq gələcəyini gözü götürməyən, xarici qüvvələrin əlində oyuncaq olan personallar var. Hesab edirəm ki, belə bir həssas zamanda, işğaldan azad olunmuş ərazilərimizdə quruculuq işləri getdiyi bir zamanda ölkəmizi gözü götürməyən qüvvələrin narahat olduğu bir zamanda iqtidar və müxalifətin dövlətimiz üçün, milltəimiz üçün həssas olan bir məsələni birlikdə bərabər, bir masa ətrafında toplaşaraq fikir mübadiləsinin aparması, diskusiyyaların təşkil edilməsi bizim cəmiyyətimiz üçün faydalı ola bilər”.

”Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsi yaranandan sonra Ədalət Vəliyevin çox ciddi fəaliyyəti oldu”. Bu sözləri SİA-ya açıqlamasında **Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev deyib**.



Onun sözlərinə görə, ölkədə yeni təbəqələşmə, partiyalararası münasibətlərin sivil qaydada tənzimlənməsi, milli maraqları özündə ehtiva edən məsələlərdə ortaq danışıq məhz bu görüşlərin nəticəsi olaraq ortaya çıxdı: ”Əslində zəfər gedən yolda ölkəmizdə milli birliyin olması çox ciddi amildir və milli birliyin təmin olunmasında da partiyanın ortaya qoyduğu mövqe də çox ciddi məsələdir. Biz siyasi partiyalar olaraq bütün ölkə üzrə milli maraqlarımızı qorumaq üçün müvafiq mövqedən çıxış etdik. Dünən ki, müzakirələr də göstərdi ki, əsas əhval-ruhiyyə bu birliyi qoruyub saxlamaqdır. Görüşdə bir çox məsələlər müzakirə olundu. Bundan sonra da keçiriləcək görüşlərdə indi verilən təkliflərin nəticələri ilə bağlı, onların nəzərə alınması ilə bağlı bizə məlumat veriləcəkdir. Düşünürəm ki, bu sevindirici bir haldır. Hesab edirəm ki, ölkəmizin gələcəyi üçün bu çox ciddi bir addımdır”.

***Arzu Qurbanzadə***

# Sevinc Fətəliyeva: Ermənistanda dərinləşən sosial-iqtisadi böhran məğlub ölkəni növbəti siyasi kataklizmlərə sürükləyir



Azərbaycan torpaqlarını otuz ilə yaxın müddət ərzində işğal altında saxlayan Ermənistan öz təcavüzkar siyasəti səbəbindən bütün regional layihələrdən kənarda qalıb və hazırda faktiki olaraq təcrid vəziyyətindədir. Eyni zamanda, 44 günlük müharibədə ağır məğlubiyyətə uğrayan Ermənistanda sosial-iqtisadi böhran dərinləşib və bu, məğlub ölkəni növbəti siyasi kataklizmlərə sürükləyir. Ona görə də, Ermənistan hakimiyyəti 2020-ci il noyabrın 10-da imzalanmış birgə Bəyanatda nəzərdə tutulmuş razılaşmalara, o cümlədən kommunikasiyaların açılması məsələsinə ciddi yanaşmalıdır.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib.

Deputat bildirib ki, bu günlərdə Ermənistanın baş naziri Nikol Paşinyan hökumətin iclasında kommunikasiyaların açılmasında maraqlı olduqlarını dilə gətirib. Əslində, 10 noyabr razılaşmasından sonra erməni tərəfi bu tipli bəyanatlar səsləndirir. Amma Ermənistan hakimiyyəti bu mövqeyində səmimi olmalı, kommunikasiyaların açılmasına əngəllər yaratmamalıdır.

Ermənistanın böhran və tənəzzüldən yeganə xilas yolunun Azərbaycanın yaratdığı yeni reallıqları qəbul edərək konstruktiv və praqmatik mövqe sərgiləməkdən ibarət olduğunu vurğulayan Sevinc Fətəliyeva deyib: ”Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan tarixi Qələbə qazanmaqla həm öz ərazi bütövlüyünün bərpasına nail oldu, həm də bütün region xalqları və dövlətləri üçün faydalı əməkdaşlıq imkanları yaratdı. Postkonflikt mərhələsində də Azərbaycanın irəli sürdüyü təşəbbüslər və təkliflər regional inkişafa, bölgədə əməkdaşlığın dərinləşdirilməsinə xidmət edir. Ermənistan bu tarixi şansdan istifadə edərək, yaranmış fürsəti dəyərləndirməlidir. Bunun üçün, ilk növbədə, ərazi iddiasından əl çəkməli, sülh müqaviləsinə hazırlıq işləri görməli, kommunikasiyaların açılmasını əngəlləməməli və sərhədlərin delimitasiyası ilə əlaqədar beynəlxalq hüquq normalarına uyğun konkret mövqe ortaya qoymalıdır”.

S.Fətəliyeva qeyd edib ki, regional kommunikasiyaların açılması üçün Azərbaycan, Rusiya və Ermənistan baş nazirlərinin müavinlərinin üçtərəfli komissiyasının işi bərpa edilib. Məhz bu fakt Ermənistanın reallığı qəbul və dərk etmək məcburiyyətində olduğunu göstərir. Bütün bu məsələlərin həll olunması bütövlükdə region üçün əhəmiyyətli siyasi və iqtisadi faydalar vəd edir. Bu, bölgədə sülhün yaradılması, təhlükəsizliyin təmin olunması və əməkdaşlığın genişləndirilməsi baxımından çox önəmlidir.

”Məlumdur ki, Azərbaycan Prezidenti İlham Əliyev ”3+3” platforması ilə çıxış edib. Yəni 6 dövlətin - Azərbaycan, Türkiyə, Gürcüstan, Rusiya, İran və Ermənistanın birgə əməkdaşlığı regionun iqtisadi tərəqqisində çox mühüm rol oynaya bilər. Burada Zəngəzur dəhlizi isə müstəsna əhəmiyyət kəsb edir. Bu dəhlizin açılması bizim milli, tarixi və gələcək maraqlarımıza tam cavab verir. 44 günlük Vətən müharibəsində qazandığımız möhtəşəm Zəfərin nəticəsi olaraq Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladıqları birgə Bəyanat əsasında yaradılacaq yeni Zəngəzur dəhlizi uzun illər blokadada olmuş Naxçıvan Muxtar Respublikasını bu şəraitdən çıxarmaqla yanaşı, qədim Zəngəzurun qapılarını da uzun həsrətdən sonra böyük türk dünyasının üzünə açır. Azərbaycan bölgədə davamlı sülhün bərqərar edilməsi üçün regional əməkdaşlığa böyük önəm verir. Zəngəzur dəhlizinin yaradılması da bu əməkdaşlığın vacib tərkib hissəsidir. Bu baxımdan, Ermənistan hakimiyyəti kommunikasiyaların açılması məsələsində səmimi olmalı, prosesi uzatmamalı və bu yöndə razılaşmaların icrası üçün konkret addımlar atmalıdır”, - deyə deputat vurğulayıb.

# “Ədalət Vəliyevin bu davranışı iştirakçıların bəzilərinə siyasi mədəniyyət ”dərsi” oldu”



“Prezident Administrasiyasının siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin ”Siyasi partiyalar: Zəfər, yeni reallıq və dialoq” mövzusunda təşkil etdiyi konfransı mühüm hadisə hesab edirəm”. Bunu SİA-ya açıqlamasında ANAP-ın sədri Abutalıb Səmədov bildirib.

Onun sözlərinə görə tədbirdə ölkədə fəaliyyət göstərən 45 siyasi partiyanın rəhbərləri iştirak etdilər: ”Müxtəlif mövzularda 17 çıxış oldu. Partiya sədrləri çox müxtəlif məsələlər barədə, əksər hallarda reqlamentə məhəl qoymadan öz mülahizələrini söylədilər. Bu cür tədbirlərin tez-tez, ən azı 3 ayda bir dəfə keçirilməsini təklif edənlər də oldu, tədbirin formatına etiraz edənlər də. Bəzi liderlər hakimiyyətin göstərdiyi diqqətdən o qədər ”ərköyünləşdi” ki, ”mənim tanımadığım adamlar nədən burada iştirak edir”, ”bu cür tədbirlərdə eyni mövqedə duran partiyalar iştirak etməlidir”-kimi əsassız iddialar səsləndirməkdən, siyasi mədəniyyətə uyğun gəlməyən ifadələr söyləməkdən özlərini saxlaya bilmədilər. Konfransda 44 günlük qələbəmizdə igid əsgərimizin və müdrik Ali Baş Komandanımızın rolu xüsusilə qeyd olundu, siyasi partiyaların bundan sonra da dövlət maraqlarını hər şeydən üstün tutacaqlarına olan dərin inam dəfələrlə ifadə edildi. Parlamentdə boş olan yerlərə seçkilərin keçirilməsinin vacibliyini vurğulayan partiya sədrləri bunu Konstitusiyanın tələblərinin pozulması kimi dəyərləndirdilər”.

A.Səmədov onu da bildirdi ki, əhalinin maarifləndirilməsi istiqamətində siyasi partiya liderlərinin xüsusi rolunun olması, indiki mürəkkəb dövrdə məsuliyyətli davranmaları, kütlənin xoşuna gələn zərərli bəyanatlar verməkdən çəkinmələri zərurəti iştirakçılar tərəfindən dəfələrlə dilə gətirildi: ”Müxalifət partiyalarının sədrləri hakimiyyətə yönəlmiş tənqidlərini yenə də söylədilər və bu fikirlərə Prezident Administrasiyasının rəsmi nümayəndəsi Ə.Vəliyev xüsusi diqqət və maraqla yanaşdı. Son sözü söylərkən həmin fikirlərin üzərində dayanmağı vacib saydı. Bütövlükdə hakimiyyət təmsilçisinin bəzən tədbirin mötəbərliyinə xələl gətirən çıxışlara belə böyük səbrlə yanaşması konfrans iştirakçılarının diqqətindən yayınmadı. Güman edirəm ki, hörmətli Ədalət Vəliyevin bu davranışı iştirakçıların bəzilərinə siyasi mədəniyyət ”dərsi” oldu”.

***Gülyana***

# ”Belə görüşlərin keçirilməsinin əhəmiyyəti var”

*Partiya sədri münasibət bildirdi*



“Siyasi partiyalar: Zəfər, yeni reallıq və dialoq” mövzusunda təşkil edilmiş konfransın keçirilməsi çox yaxşı bir haldır. 2019-cu ilin sonlarından başlayaraq ölkədə yeni siyasi konfiqurasiya yaranıb, bunun da təşəbbüskarı Cənab Prezident İlham Əliyevdir”. Bunu SİA-ya açıqlamasında Təkamül Partiyasının sədri Teyyub Qənioğlu deyib.

Onun sözlərinə görə, yeni siyasi konfiqurasiyanın formalaşmasında və inkişafında Prezident Administrasiyasının tərkibində Siyasi partiyalar və Qanunverici hakimiyyətlə Əlaqələr şöbəsinin yaradılması əhəmiyyətli rol oynayıb. Hörmətli Ədalət Vəliyevin rəhbərliyi altında həm onun, həm də şöbə işçilərinin təşəbbüsü ilə partiya rəhbərləri ilə çoxsaylı görüşlər keçirilib. Prezident Administrasiyasından vaxtaşırı siyasi partiya rəhbərləri ilə əlaqə saxlayırlar, ölkədə baş verən proseslər haqqında məsləhətləşmə aparırlar və bizim də fikirlərimizi öyrənirlər. Vətən müharibəsində qazandığımız möhtəşəm qələbədən sonra ilk dəfə idi ki, belə bir görüş keçirilirdi. Hesab edirik ki, belə görüşlərin keçirilməsinin əhəmiyyəti var. Yəni bunu iqtidarla siyasi partiyalar arasında dialoq da adlandırmaq olar. Bir sözlə, siyasi partiya liderlərinin belə bir görüşünün keçirilməsini təqdirəlayiq hesab edirik. Bu, iqtidarla müxalif siyasi partiyalar arasında dialoqun davamlı olduğunun bariz nümunəsidir və bu, gələcəkdə də davam etdiriləcək”.

***Gülyana***







# Media sahəsində Azərbaycan-Türkiyə əlaqələrinin daha da gücləndirilməsi məsələsi müzakirə olunub

***Türkiyə Radio və Televiziya Üst Qurumunun (RTÜK) geniş nümayəndə heyəti Azərbaycanda səfərdədir. Beynəlxalq TURAZ Akademiyası Konqresi çərçivəsində Bakıda səfərdə olan RTÜK-ün rəhbəri Əbubəkr Şahin və Üst Qurumun digər üzvləri sentyabrın 10-da Medianın İnkişafı Agentliyinin (MEDİA) İcraçı direktoru Əhməd İsmayılov və Milli Televiziya və Radio Şurasının sədri İsmət Səttarovla görüşüblər.***

AZƏRTAC xəbər verir ki, görüşdə İsmət Səttarov iki qardaş ölkə arasında Birgə Media Platformasının fəaliyyətinin gücləndirilməsi, media sahəsində bilik və təcrübə mübadiləsinin daha da intensivləşdirilməsi və digər qarşılıqlı maraq kəsb edən məsələlərdən danışıb. O, Türkiyənin rəqəmsal media sahəsində biliklərinin paylaşılması, müxtəlif media təmsilçiləri ilə tərəfdaşlığın qurulmasının əhəmiyyətini vurğulayıb. Şura sədri beynəlxalq arenada rast gəlinən dezinformasiyalara qarşı birgə mübarizə aparılması və dünya ictimaiyyətinin düzgün məlumatlandırılmasının vacibliyini qeyd edib.

MEDİA-nın İcraçı direktoru Əhməd İsmayılov media və kommunikasiya sahəsində Azərbaycan-Türkiyə ikitərəfli əlaqələrinin və əməkdaşlığının daha da gücləndirilməsindən, strateji media ortaqlığının yaradılmasından bəhs edib. Qardaş ölkənin Vətən müharibəsi zamanı göstərdiyi mənəvi dəstəyin xüsusi əhəmiyyətə malik olduğunu bildirən Ə.İsmayılov Medianın İnkişafı Agentliyinin fəaliyyəti barədə qonaqları məlumatlandırıb.

Əbubəkr Şahin öz növbəsində ikitərəfli əlaqələrin gücləndirilməsində və əməkdaşlıqda maraqlı olduqlarını bildirib.

# "Ötən həftənin Şuşa, Füzuli və Sumqayıt zəfərləri"

"Dünyamız yenə ziddiyyətlərlə, qarşıdurmalarla, təbədüllatlarla doludur. Yenə də günahsız insanların qanlı göz yaşları axıdılmaqda, ölüm-lər-itimlər yaşanmaqdadır. Dünyamız yenə böyük və cavabı mübhəm, qaranlıq olan imtahandan keçməkdədir. Ancaq bütün bu qarmaqarışıqların fonunda xalqımız, dövlətimiz, qalib və müzəffər Azərbaycanımız özünü möhkəm şəkildə qorumaqda, gələcək inkişafına doğru inamla və qətiyyətlə irəliləməkdə, 44 günlük tarixi Zəfərinin davamını yaşatmaqda, hər gün kərpic üstünə bir kərpic qoymaqdadır. Son on gündə yaşadıqlarmız bunun əyani təsdiqidir". Bunu SİA-ya açıqlamasında Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini, filologiya elmləri doktoru, professor Jalə Əliyeva söyləyib.

Deputat qeyd edib ki, ötən on günün ilk hadisəsi Şuşanın şuşalı günləri, növbəti Şuşa Zəfəri oldu: "Düz on gün əvvəl Azərbaycanımızın, Qarabağımızın göz bəbəyi, dilbər guşəsi olan Şuşa yenidən əvvəlki axarlı-baxarlı ab-havasına, əsl şuşalı günlərinə qayıtdı: "8 noyabr Zəfərindən - Şuşanın fəthindən sonra bu şəhər yeni - növbəti Qələbəsini toy-bayram etdi və bunu da bütün dünyaya şəstlə nümayiş etdirdi. Bir daha hər kəsə Azərbaycanın, Qarabağın olduğunu, ondan ayrılmazlığını ortaya qoydu.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev və onun ən yaxın silahdaşı Birinci vitse-prezident Mehriban Əliyeva növbəti səfərləri ilə Şuşamıza yenidən can verdilər. Azərbaycan qədər böyük imza sahiblərinin - Molla Pənah Vaqifin, dahi Üzeyir bəyin və Bülbülün heykəllərinin, bərpadan sonra ev-muzeylərinin, muzey-məqbərə komplekslərinin, "Qarabağ" hotelinin, "Qala və Konsert Mərkəzi"nin açılışları oldu, Şuşanın baş planı ilə tanışlıq baş verdi, şəhərin ilk yaşayış məhəlləsinin təməli qoyuldu. Ürəkləri coşduran məqamlardan biri isə təxminən 30-33 illik fasilədən sonra Vaqif Poeziya Günlərinin rəsmi açılışı keçirildi. Həmin anların, həmin tarixi, sözlə ifadəsi mümkün olmayan məqamların canlı şahidi və iştirakçısı kimi özümü dünyanın ən xoşbəxt, ən bəxtəvər insanlarından biri hesab edirəm. Çünki Şuşa zəfərindən, uzun illərin ayrılığından sonra ilk dəfə idi Şuşamda, qibləgahımda idim. Bəli, Şuşa bizim qibləgahımız, ziyarətgahımız, Ali Baş Komandanımızın dediyi kimi, baş tacımızdır.

"Təxminən 40 il bundan əvvəl, bax, bu yerdə atam durmuşdu, mən isə o tərəfdə durmuşdum. Şaxtalı-qarlı havada Vaqifin məqbərəsinin açılışı idi. Ondan sonra 1982-ci il iyulun 29-da atamla bərabər ikinci dəfə Şuşaya gəlmişdim. O vaxt Vaqif Poeziya Günləri keçirilirdi. Bu gün isə ikinci dəfə Vaqifin məqbərəsinin açılışını biz qeyd edirik. Vaqif Poeziya Günləri keçirilərkən atamın 59 yaşı var idi. Bu gün mənim 59 yaşım var. Bəziləri hesab edə bilər ki, bu, təsadüfdür. Ancaq mən hesab edirəm ki, burada böyük rəmzi məna var, tarix təkrarlanır". Bu tarixi sözləri Prezident İlham Əliyev Vaqif Poeziya Günlərinin açılışı zamanı nitqində dedi. Dövlətimizin başçısının dediyi kimi, Azərbaycan tarixinin qara səhifəsi artıq arxada qaldı və biz yenidən nəfəs almağa başlamışıq.

Noyabrın 8-də də Azərbaycan xalqına Şuşa müjdəsini verərkən ölkə Prezidenti sevinc göz yaşları içində demişdi ki, Şuşa artıq azaddır, bu, həqiqətdir. Bəli, bu, həqiqətdir, bu, gerçəklikdir və biz artıq azad Şuşada yığışmışıq, biz Şuşaya qayıtmışıq.

Festivallar, poeziya günləri, mədəni tədbirlər və bir çox başqa tədbirlər artıq keçirilir və keçiriləcəkdir. Biz Şuşanı dirçəldəcəyik və biz Şuşanı dirçəldirik. Dirçəlişin mübarək, əziz Şuşa!

Deputat fikirlərinə davam edərək həmçinin qeyd edib ki, ikinci hadisə Prezidentin Sumqayıt şəhərinə növbəti səfəri oldu. Bu səfər zamanı təkcə Sumqayıtımızın deyil, bütövlükdə ölkəmizin inkişafına təkan verəcək addımların atılmasının şahidi olduq.

Deməliyəm ki, keçmiş sovetlər birliyinin, onun başsız başbilənlərinin, mənfur qonşularımızın təsiri altında olanların məqsədyönlü siyasəti nəticəsində, yəni, keçmiş imperiyanın süqutu ərəfəsində, 1980-ci



illərin sonlarında Sumqayıt az qala "ölü şəhər"ə çevrilmişdi. Bu şəhərdəki kimya zavodları, sənaye müəssisələri şəhərin ekologiyasını, insanların həyatını, yaşayışını, sağlamlığını zəhərə döndərmiş, sual altına qoymuşdu. Yalnız Ulu Öndərimizin ikinci dəfə hakimiyyətə qayıdışından sonra - 1990-cı illərin ortalarından Sumqayıtla ciddi maraqlanması nəticəsində ölkəmizin üçüncü sənaye şəhəri Sumqayıt və sumqayıtlılar, necə deyərlər, fəlakətin eşiyindən döndülər. 1970-ci illərdə Ulu Öndərin birinci hakimiyyəti dönəmində əsl inkişaf, intibah dövrünü yaşayan Sumqayıta yenə Ümummilli Liderimiz sayəsində ikinci nəfəs verildi, şəhər yenidən canlandırıldı. Ulu Öndərin layiqli davamçısı, Prezident İlham Əliyevin hakimiyyətə gəlişi, 18 illik tarixi missiyası ilə Sumqayıt ikinci inkişafını yaşamaqdadır. Bir zamanların ekoloji cəhətdən ən çirkli şəhəri bu gün Azərbaycanın ən səfalı guşələrindən birinə çevrilməkdə, ölkənin əsas sənaye mərkəzi funksiyasını uğurla yerinə yetirməkdədir. Məşhur bir mahnıda da deyildiyi kimi: "Xarüqələr yaradır, el Sumqayıtda".

Sumqayıtda, eləcə də ölkəmizin digər bölgələrində görülən işlər yürüdülən siyasətin əsasını təşkil edən Azərbaycan vətəndaşı naminə, Azərbaycanın inkişafı, parlaq gələcəyi üçündür.

Digər əlamətdar hadisə isə Qarabağın hava qapısı - Füzuli Hava Limanına ilk eniş oldu. Məlum olduğu kimi, sonuncu tarixi Şuşa səfəri zamanı ölkə Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva, həmçinin işğaldan azad olunmuş Füzulidə dayanmış və Füzuli Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanış olmuşdular.

Prezident İlham Əliyev "Füzuli Beynəlxalq Hava Limanına yaxınlaşırıq. Sol tərəfdə aerovağzal kompleksidir, qarşıda uçuş-enmə zolağı. Cəmi bir neçə ay ərzində hava limanı demək olar ki, artıq açılışa hazırlaşır. Hava limanının inşası bu il başlamışdır. Mən demişdim ki, bu il Füzuli Beynəlxalq Hava Limanı istifadəyə veriləcək. Bəlkə də dünyada bu sürətli templərlə heç bir hava limanı tikilməmişdir. Artıq uçuş-enmə zolağı da hazırdır. Burada son tamamlama işləri aparılır. Bir daha qeyd etmək istəyirəm, bu il mən hava limanının təməlini qoydum, indi sə gəlirik inşaat işləri ilə tanış olmağa" deyərək qürurla və iftixar hissi ilə bəyan etmişdi ki, bu aeroport Qarabağın hava qapısıdır.

Füzuli Hava Limanında görülən işlərlə tanışlıqdan cəmi 6 gün sonra daha bir tarixi an yaşandı. Füzuli Beynəlxalq Hava Limanının istismara verilməsindən əvvəl Bakıdan uçan "Azərbaycan Hava Yolları"na məxsus ən böyük "Airbus A340-500" tipli sərnişin təyyarəsi sınaq reysi həyata keçirərək işğaldan azad olunmuş Qarabağın ilk hava limanında eniş icra etdi. Bununla da Füzuli Beynəlxalq Hava Limanında uzunluğu 3000 metr, eni 60 metr olan uçuş-enmə zolağı istismara verildi. Füzulini, bütün Qarabağı, işğaldan azad olunmuş yurd yerlərimiz bizə daha da yaxınlaşdı.

Füzulinin, Cəbrayılın, Hadrutun, Qubadlının, Zəngilanın, Ağdamın, Laçının, Kəlbəcərin... əsl sahibləri, bu torpaqların, əzəli və əbədi yurd yerlərinin əsl yiyələri bizik. Kimsə bir daha bu torpaqları bizlərdən ala bilməz. Biz qayıtdıq, biz əbədi qayıtdıq və biz əbədi qalacağıq! Yaşa, yarat, Zəfərlər üzərinə Zəfərlər qazan, can Azərbaycan".

# Vergi məbləğləri hansı formalarda tutulur?




Vergi Məcəlləsinə əsasən, vergi məbləğləri vergiödəyicilərindən bir neçə formada tutulur.

AZƏRTAC Dövlət Vergi Xidmətinə istinadla xəbər verir ki, vergi məbləğləri əsas etibarı ilə bilavasitə mənbədən (verginin gəlir və ya mənfəət əldə edilməsinədək tutulması), bəyannamə üzrə (verginin gəlir və ya mənfəət əldə edilməsindən sonra tutulması) və eləcə də bildiriş üzrə (vergitutma obyektinin dəyəri və sahəsi əsasında vergi orqanının və ya bələdiyyənin hesabladığı məbləğ üçün təqdim etdiyi tədiyə bildirişi əsasında vergiödəyicisi tərəfindən verginin ödənilməsi) hesablanaraq tutulur.

# Ermənistanı dövlət olar

***Diplomatik qaydalara görə bir dövlətlə iqtisadi, siyasi və digər əlaqələr qurulmursa, bu, həmin dövlətin bir dövlət olaraq tanınmaması deməkdir. Buna bəzi ərəb dövlətlərinin Fələstinin ərazilərini işğal etdiyinə görə, İsraili dövlət olaraq tanımamalarına misal olaraq göstərmək olar. Bu nöqteyi-nəzərdən Ermənistanın dövlət kimi (Pakistanın və Səudiyyə Ərəbistanın Ermənistanı dövlət kimi tanımaması təcrübəsi mövcuddur) tanınmaması istiqamətində iş aparmaq mümkündür.***



Digər ərəb ölkələrinində Pakistan və Səudiyyə Ərəbistanı kimi analoji addım atmaması, təbii ki, təəccüb doğurmaya biimez. Ermənistanın dövlət kimi tanınmaması istiqamətində Azərbaycan parlamenti də gərgin iş aparmalıdır. Çətin də olsa, bu işi həyata keçirmək mümkündür. Ermənistana qarşı ən azı iqtisadi, siyasi sanksiyalaların tətbiq olunması üçün ərəb ölkələrinin gücündən istifadə etmək olar. Nəzərə almaq lazımdır ki, ərəb ölkələri beynəlxalq aləmdə böyük güc mərkəzi kimi tanınır və qəbul olunur. 22 ərəb dövləti və 56 müsəlman ölkəsində 1,4 milyard müsəlman yaşayır. Müsəlman dövlətləri geniş coğrafi ərazini əhatə etsələr də, birliyə malik deyillər. Misir, İordaniya kimi ölkələrin ərəb birliyinə mane olduqları şübhəsizdir. Hətta 1978-ci il Kembel müqaviləsinə əsasən, Ənvər Saadat İsraillə əlaqələr qurdu, bu ölkənin dövlət olaraq mövcudluğu tanındı. Düzdür, bunun nəticəsi Ənvər Saadat üçün acınacaqlı oldu. Misirli kamikadze Ə.Saadatı öldürməklə ərəb dünyasının üzərindəki ləkəni götürmək istədi, amma artıq gec idi. Qısası ərəb dövlətlərində ümumi maraqlar ətrafında birləşmə yoxdur. Buna baxmayaraq, ərəb dövlətləri Ermənistanın Azərbaycanın torpaqlarını işğal etməsinə o qədər də etinasız deyillər. İslam Konfransı Təşkilatı Ermənistanı işğalçı dövlət kimi tanıyıb, həmçinin bu təşkilatın parlamenti ermənilərin Xocalıda soyqırımı siyasəti həyata keçirmələri barədə qərar qəbul ediblər. Amma bu addımın ardınca ərəb dövlətləri əməli işə də keçə bilərlər. Yəni Ermənistanla siyasi-iqtisadi əlaqələri kəsmək olar. Səfirlikləri geri çağırmaqla ultimatum tələbi irəli sürmək də mümkündür. Necə ki, ABŞ və Şərqi Avropa ölkələri Səddam Hüseynə, Fransa isə Qəddafi hakimiyyəti qarşısında konkret vaxt qoydu. Eləcə də İKT-də Ermənistan hakimiyyəti qarşısında vaxt qoya bilərdi. Təəssüf ki, işğalçı ölkə olan Ermənistana qarşı müsəlman həmrəyliyi nəzərə belə çarpmır, əksinə, bəzən təcavüzkarı şirnikləşdirmək hallarına da rast gəlinir. Bunu qonşu İranın timsalında qeyd etmək olar.





## İranın erməni qardaşlığının tarixi kökləri

Təsdiq olunmuş faktdır ki, İran birmənalı şəkildə ABŞ bu regiona girə bilməsin deyə, ermənilərlə hələ 1991-ci ildən yaxınlaşmağa başladı. Şuşa işğal olunanda Azərbaycan Respublikasının Milli Məclisinin sədri, eləcə də prezident səlahiyyətlərini icra edən Yaqub Məmmədov Tehranda idi. Orada Ermənistan prezidenti Ter-Petrosyanla cəbhədə atəşkəsə nail olunması ilə bağlı müqavilə imzalayırdı. Belə məqamda Şuşa işğal olundu. Bu, nə deməkdir? Yəni İran Yaqub Məmmədovu aldadaraq Tehrana apardı, ermənilər də asanlıqla Şuşanı işğal etdilər? 20 noyabr 1991-ci ildə Qarakənd səmasında Azərbaycanın yüksək dövlət rəsmilərinin və Rusiya hərbçilərinin olduğu vertolyotun vurulmasında da İranın əli vardı. Sübut olunub ki, bu hadisəni törədən 17 nəfərdən biri İran vətəndaşıdır. Həmin terror aktını törədən şəxsləri İran maneəsiz öz ərazisinə keçirdi. Bu gün də İran işğalçı Ermənistanı bu və ya digər formada dəstəkləyir. Hər gün ermənilər heç bir viza, şərt tələb olunmadan Xudafərin körpüsü vasitəsi ilə İrana gedib-gəlirlər. Bu, həm də onu göstərir ki, İran burada Rusiyanın maraqlarını təmsil edir. Hazırda Ermənistan Rusiya üçün İrana silah ötürməklə bağlı ən yaxşı vasitədir. İran özünü islam respublikası elan edib. Bu respublikanın banisi ayətullah Xomeneynidir. Xomeneynidən qalma ideologiyaya görə, (bu, həm də xomeneyizm ideologiyası adlanır) müsəlmanın müsəlmandan yaxın dostu yoxdur. İdeologiyanın birinci şərti budur. Amma İranın indiki və əvvəlki prezidentlərinin apardıqları siyasətə nəzər yetirdikdə, bu, ideologiyanın ayaqlar altında tapdalandığını görmək olar. İran prezidenti Mahmud Əhmədinejad özünü Xomeneyinin bir nömrəli davamçısı elan edib. Amma M.Əhmədinejad Xomeneyizm ideologiyasının birinci prinsipini - Azərbaycanın torpaqlarını işğal edib, 1 milyondan çox insanı ev-eşiyindən didərgin salan Ermənistanla geniş əməkdaşlıq münasibətləri qurmaqla pozubdur. Bu gün xomeneyizm ideologiyasının mühüm prinsiplərindən biri də islam inqilabının ixracıdır. Amma burada da fərqli mövqe görünür. Yəməndə, Misirdə, Tunisdə inqilablar baş verəndə İran rəhbərliyi elan etdi ki, bu xomeneyizm ideologiyasına əsasən, İran inqilabının ixracının təntənəsidir. İran Suriyaya qarşı münasibətdə isə əks-mövqe sergiledi. Halbuki oxşar ssenari, oxşar proseslərdir. Deməli, lazım gələndə, siyasətdə xomeneyist də olmaq olar, başqa halda isə xomeneyzim ideologiyasının əleyhinə siyasət də yürütmək də olar. İranın ali dini rəhbərliyinin apardığı bu yanlış siyasət regionda vəziyyəti gərginləşdirməklə yanaşı, islam dünyasında da parçalanma yaradır. Bu nöqteyi-nəzərdən o qənaətə gəlmək olar ki, əgər yaxın qonşu müsəlman dövləti olan İran ikili siyasət yeridirsə, o zaman Azərbay-

# ...raq tanımamaq olarmı?

candan uzaq olan ərəb dövlətlərindən Ermənistana qarşı sərt mövqe sərgiləyəcəklərini gözləmək olarmı? Burada Azərbaycanın regionun lider dövlətinə çevrilməsi beynəlxalq münasibətlər sistemində söz sahibi olması da ölkəmizə qarşı qısqanclıq hissinin yaranmasına səbəb olur. Bəzi dövlətlər zahirən özlərini dost ölkə kimi göstərsələr də, əslində, Azərbaycanın dünyada artan gücü, yüksələn iqtisadi potensialı onları narahat edir. Bir çox müsəlman ölkələrində hakimiyyət ilə xalq arasında dərin uçurum yaranıb. Onlar bundan da qısqanırlar ki, Azərbaycan sabit, sakit dövlətdir. Azərbaycanda milli birlik mövcuddur.

### Azərbaycan Göyçəni, Dərələyəzi, Qərbi Zəngəzuru və İrəvanı da işğaldan azad edib, tarixi ədalətsizliyi bərpa edə bilər

Çox təəssüf ki, Qarabağ münaqişəsinin həlli ilə ATƏT-in Minsk Qrupunun həmsədrləri kimi ABŞ, Rusiya və Fransa məşğul olur. Hansı ki, bu dövlətlər bu problemin həllində maraqlı deyillər. Ona görə ki, hər üç dövlət Ermənistana bütün hallarda himayədarlıq edirlər. Fransa Ermənistanı bacısı hesab edir. 2012- ci il yanvarın 23-də isə Fransa Senatı qondarma "erməni soyqırımı"nı kriminallaşdıraraq, bu soyqırımı etiraf etməyənlərə cəza tətbiq edilməsi barədə qərar qəbul etdi. 44 günlük Vətən müharibəsi dönəmində və ondan sonra da Fransa hər cür siyasi, hərbi dəstəyini Ermənistana göstərdi. Hətta qondarma rejimi "müstəqil dövlət" kimi tanımaq barədə absurd qərar qəbul etdi. Bununla da Fransa tərəfliyinin hansı formada olduğunu ortaya qoyur. Düzdür sonradan Fransa Konstitusiya Şurası Senatın "erməni soyqırımı"nı etiraf etməyənlərə cəza tətbiq edilməsi barədə qərarını ləğv etdi. Amma fakt ondan ibarət oldu ki, Sarkozi, eləcə də Makron kimilər ermənipərəstlikdən boyun qaçırmaq fikrində deyillər. Rusiyanın isə Ermənistana bir quberniyası kimi baxdığı hər kəsə bəllidir. Rusiya Ermənistanı qoruyur və müdafiə edir. Ermənistanın istənilən hakimiyyət dəyişikliyi Rusiya tərəfindən müəyyənləşir. Hazıkı məqamda Paşinyanı Ermənistan əhalisi baş nazir kimi qəbul etməsələr də, Rusiyanın siyasi maraqlarına təpki göstərir və istəyinə də nail olur. Rusiyanın Gümrüdə 102 saylı hərbi bazası yerləşir. Heç bir əsas və səbəb olmadan hərbi kontingentin 49 il müddətinə Ermənistanda qalması haqqında müqavilə imzalanıb. Yəni Ermənistan bütün mənalarda Rusiyadan asılı olan qeyri-real dövlətdir. Rusiya necə tərəfsiz ola bilər ki, Qarabağı işğal etmiş Ermənistanda hərbi bazası var. Hələ 1997-ci ildə Rusiya Ermənistana 1 milyard dollar həcmində haqqı ödənilməyən silah-sursat hədiyyə edib. Sonrakı mərhələlərdə də Rusiya dilənçi payını Ermənistandan əsirgəməyib. Rusiya necə Dağlıq Qarabağ münaqişəsinin həllində ədalətli mövqe tuta bilər ki, işğalçı Ermənistan onun hegemonluğu ilə yaradılan KTMT-də təmsil olunur. Hava məkanı, sərhədlərini Rusiyanın qoruduğu Ermənistanın müstəqil dövlət olduğunu iddia etməsi yalnız gülüş doğurur. Bir məsələni də yaddan çıxarmaq olmaz ki, Rusiya münaqişəsinin dondurulmuş vəziyyətdə qalmasında maraqlıdır. Əgər münaqişə öz həlini taparsa, o zaman Rusiyanın vacibliyi və hazırlıq əmsalı da aşağı düşə bilər. Münaqişə qalarsa, Ermənistanın Rusiyadan asılılığı qalar. Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi üçün Azərbaycanın hərbi variantdan istifadə edə biləcəyindən qorxan Ermənistan Rusiyaya yarınmaq, yaltaqlanmaq fəaliyyətini davam etdirməli olacaq. Nə qədər paradoksal olsa da, Rusiya Dağlıq Qarabağ probleminin həllinin öz əlaltısının xeyrinə olmasını belə istəməz. Amerika Birləşmiş Ştatları isə prinsip etibarı ilə münaqişənin həllini istəyir, amma onun üçün münaqişənin kimin xeyirinə həllinin fərqi yoxdur. ABŞ üçün əsas odur ki, münaqişənin həlli çərçivəsində milli maraqları təmin olunsun. Dünyanın fövqəldövləti olan ABŞ-ın istənilən münaqişənin həllinə nail olmaq imkanları var. Faktlara əsasən demək olar ki, ABŞ-ın dünyanın 30 ölkəsində 760-a qədər hərbi bazası və hərbi obyektləri mövcuddur. Yalnız 2021-ci il üçün ABŞ-ın hərbi büdcəsi bir trilyon dollar olub. Nəzərə almaq lazımdır ki, BMT-nin üzvü olan 194 ölkənin hərbi büdcəsi 1,4 trilyon dollar olduğu halda, ABŞ bu vəsaitin yarısından çoxuna malikdir. Bu nöqteyi-nəzərdən demək olar ki, ABŞ istənilən problemi, o cümlədən də, Ermənistana siyasi, iqtisadi cəhətdən təsir və təzyiq etməklə, vəhşi toplumdan ibarət olan erməniləri regionda gərginlik yaratmaqdan çəkindirə bilər.. Yetər ki, ABŞ-ın marağı olsun və məsələyə ikili yanaşmadan çəkinsin. Görünən isə ondan ibarətdir ki, ABŞ-dakı erməni lobbisi hakimiyyətləri Azərbaycanın haqlı mövqeyini açıq şəkildə dəstəkləməyə imkan vermir. Bu isə bir daha ikili yanaşmalardan xəbər verir. Bütün hallarda isə Azərbaycan beynəlxalq aləm üçün ciddi problem kimi görünən Qarabağ məsələsini özü təkbaşına həll etdi. Bununla da həm də BMT Təhlükəsizlik Şurasının erməni işğalçılarının Azərbaycan torpaqlarından çəkilməsinə dair 4 qətnaməsini özü həll etmiş oldu. Yəni Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Azərbaycan Ordusu Qarabağ münaqişəsini 44 günlük Vətən müharibəsi ilə Ermənistanı təslimçilik aktını imzalamağa məcbur etməklə bitirdi. Tam qətiyyətlə demək olar ki, Azərbaycan qısa zaman kəsiyində 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il birgə razılamaların müddəalarını da yerinə yetirə bilər. Təbii ki, əgər Ermənistan birgə razılaşmaları yerinə yetirməsə və təxribatlar törətsə, bu halda Ermənistanın vəziyyəti daha acınacaqlı və faciəvi olar. Hətta Azərbaycan tarixi əraziləri olan Göyçəni, Dərələyəzi, Qərbi Zəngəzuru və İravanı da işğaldan azad edib, tarixi ədalətsizliyi bərpa edər.









**İ.ƏLİYEV**



# Ermənistan hərbi cinayətlərinə görə cavab verəcək!

*"Human Rights Watch"ın II Qarabağ müharibəsi zamanı Ermənistanın Azərbaycanın mülki əhalisinə qarşı törətdiyi cinayətlərdən bəhs edən hesabatı da bu qənaətə gəlməyə əsas verir*

Dünya ictimaiyyəti 44 günlük müharibə zamanı bir daha mayası faşizm ideologiyası, millətçilik, terror, təcavüzlə yoğrulan Ermənistanın hərbi-siyasi rəhbərliyinin insanlıq əleyhinə cinayətlərinin şahidi oldu. 2020-ci il sentyabrın 27-də səhər saatlarından etibarən Ermənistanın hərbi qüvvələri 1994-cü ildən qüvvədə olan atəşkəs razılaşmasını kobud şəkildə pozaraq genişmiqyaslı hərbi əməliyyatlara başlayaraq bütün təmas xətti boyunca Azərbaycanın mülki obyektlərini iri çaplı silahlardan, minomyotlardan, artilleriya qurğularından və ballistik raketlərdən atəşə tutdu. Sentyabrın 27-dən başlayaraq oktyabrın 11-dək Ermənistanın silahlı qüvvələri döyüş bölgələrindən kənarda yerləşən Gəncə və Mingəçevir şəhərlərini, Abşeron, Xızı, Bərdə, Beyləqan, Ağcabədi, Zərdab, Goranboy, Göygöl, Tərtər, Yevlax yaşayış məntəqələrini atəşə tutmuş, nəticədə onlarla insan qətlə yetirilmiş, yüzlərlə mülki şəxsi yaralanmışdır. Bu hücumlar nəticəsində 1185 şəxsi evə, 148 sosial infrastruktur obyektinə və 57 yaşayış binasına əsaslı zərər dəydi. Bundan əlavə, işğalçı Ermənistanın hərbi qüvvələri bölgə üçün böyük irriqasiya əhəmiyyəti daşıyan Mingəçevir Su Elektrik Stansiyasını, Avropanın enerji təhlükəsizliyinin əsasını təşkil edən və regionun iri strateji obyektləri sayılan Bakı-Tbilisi-Ərzurum qaz və Bakı-Tbilisi-Ceyhan neft boru xətlərini hədəf kimi seçərək bombaladılar. Təcavüzkar Ermənistan 2020-ci il sentyabrın 27-də atəşkəs rejimini pozaraq hərbi əməliyyatlara başladıqdan sonra şəhərlərə və digər yaşayış məntəqələrinə qarşı qadağan olunmuş "9N235", həmçinin "M85" bombacıqlarından istifadə etdi. Qeyd olunan bombacıqlar "Kaset Sursatlar haqqında" Konvensiyaya (CCM) uyğun olaraq 2008-ci ildə qadağan olunmuş sursatlar sinfinə daxil edilib.

Qırx dörd gün ərzində təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyi heç bir beynəlxalq norma və prinsipə əməl etməyərək, Cenevrə Konvensiyası ilə üzərinə düşən öhdəlikləri kobud şəkildə pozaraq, dinc əhalini, çoxsaylı evləri, mülki obyektləri, təsərrüfat təyinatlı məntəqələri hədəfə almaqda davam edərək mülki vətəndaşlara qarşı cinayətlər törətmişdi. Bu raket hücumları zamanı əhalinin kompakt olduğu məntəqələr, rayon və kənd mərkəzləri, mülki infrastruktur obyektləri, xəstəxanaları, tibb məntəqələri, məktəb binaları və uşaq bağçaları hədəf kimi seçilmişdi. 1949-cu ildə qəbul edilən Cenevrə Konvensiyasının müharibə zamanı mülki şəxslərin müdafiəsi ilə bağlı 18-ci maddəsində qeyd olunur ki, heç bir halda münaqişə tərəfləri mülki insanların toplandığı yerə mərmi atmamalı, artilleriya atəşinə tutmamalıdır.

Şübhəsiz, militarist Ermənistan törətdiyi bu cinayətlərə görə beynəlxalq məhkəmələr qarşısında cavab verməli olacaq. Azərbaycan 30 ilə yaxın dövr ərzində bu vəhşiliyi törətmiş Ermənistana qarşı təzminat davası açacaq. Ermənistanın hərbi-siyasi rəhbərliyi illərlə törədilən başqa cinayət əməlləri kimi, bu dağıntılara görə də beynəlxalq tribunal qarşısına çıxarılacaq. Bu gün bir sıra beynəlxalq təşkilatlar, dünyanın nüfuzlu nəşrləri 44 günlük müharibə zamanı Ermənistanın hərbi cinayətlərini dünya ictimaiyyətinin diqqətinə çatdırırlar. Bu mənada "Human Rights Watch" II Qarabağ müharibəsi zamanı Ermənistanın Azərbaycana qarşı törətdiyi müharibə cinayətlərindən bəhs edən hesabatı mühüm əhəmiyyət kəsb edir. Bu hesabat həmin təşkilatın nümayəndələrinin Azərbaycanın hücuma məruz qalmış yaşayış məntəqələrinə səfərlərinin nəticələrinə və faktların araşdırılmasına əsaslanır.

Hesabatda bildirilib ki, müharibənin ilk günü Ermənistanın atdığı mərmi Azərbaycanın Naftalan şəhərində 13 yaşlı Şəhriyar Qurbanovu və onun 14 yaşlı əmisi qızı Fidan Qurbanovanı ailənin digər üç üzvü ilə birlikdə evlərinin həyətində öldürüb. Müharibə zamanı daha 10 azərbaycanlı uşaq həlak olub. Qeyd edilib ki, döyüşlər zamanı və sonra da "Human Rights Watch"un tədqiqatçıları silahlı qüvvələrin mülki əhalini hücumdan qorumaq üçün beynəlxalq müharibə qanunları çərçivəsində üzərlərinə götürdükləri öhdəlikləri yerinə yetirib-yetirmədiklərini öyrənmək üçün araşdırmalar aparıblar. Hesabata əsasən, Azərbaycanda 54 məktəb dağıdılıb və zərər görüb. Bir sıra uşaq bağçaları, incəsənət və idman məktəbləri, texnikumlar hücuma məruz qalıb.

Sənəddə, həmçinin qeyd olunur ki, Azərbaycanın qədim karvan yolu üzərində yerləşən Tərtər şəhəri döyüşlər zamanı Ermənistan tərəfindən atılan raket və ağır artilleriya zərbələrinə məruz qalıb. Şəhərin əsas küçəsində olan demək olar ki, hər vitrin hücumlar nəticəsində darmadağın olub. "Human Rights Watch" belə nəticəyə gəlib ki, erməni silahlı qüvvələrinin dəfələrlə şəhərin sıx məskunlaşmış yerlərinə qeyri-dəqiq, partlayıcı silah sistemlərindən istifadə etməsi hədəflərə fərq qoymadan baş verib. Hesabatda deyilir ki, Tərtərdə on dörd dövlət məktəbi, üç uşaq bağçası və bir peşə məktəbi zədələnib və ya dağıdılıb. Hadisələr zamanı 17 mülki vətəndaş öldürülüb və 114.000 sakindən 10.000-i ərazidən evakuasiya edilməli olub.

Hesabatda bildirilir ki, Ermənistan "Scud-B" ballistik raket ilə Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncəni vuraraq 21 nəfərin ölümünə səbəb olub. Onların dördü 29 saylı məktəbin şagirdləri olub. Həmçinin qeyd edilib ki, ərazilər basdırılmış minalarla doludur və infrastrukturun böyük hissəsi dağılıb. 1990 -cı illərdən bəri mina qurbanlarının dörddə birindən çoxu uşaqlar olub.

Göründüyü kimi, Ermənistan tərəfi hərbi əməliyyatların keçirildiyi əraziyə aid olmayan yaşayış məntəqələrini və mülki obyektləri birbaşa hədəfə almaqla dinc əhalini məhv etmək, mülki infrastruktur obyektlərini dağıtmaq məqsədi güdüb və bununla da beynəlxalq xarakterli cinayət əməli törədib. Əminik ki, tezliklə haqq-ədalət öz yerini tapacaq və Ermənistanın hərbi-siyasi rəhbərliyi 44 günlük müharibə zamanı insanlığa qarşı törətdiyi əməllərə, Azərbaycanın mülki əhalisinə qarşı etmiş olduğu cinayətlərə görə Beynəlxalq Tribunal qarşısında cavab verəcək və öz layiqli cəzasnı alacaq.

***Zahid Rza***

# "Pakistan nüvə dövləti olan yeganə islam dövlətidir"



"Pakistan Azərbaycana ən yaxın dost ölkələrdən biridir. Heç də təsadüfi deyildir ki, Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri Pakistan dövləti olmuşdur. Pakistan Azərbaycan münasibətləri Ümummilli lider Heydər Əliyevin səyləri və müdrik siyasəti nəticəsində başlamış və uğurla davam etməkdədir". Bu sözləri SİA-ya açıqlamasında deputat Musa Quliyev deyib.

Onun sözlərinə görə, Azərbaycanda səfirliyini açan ilk dövlətlərdən biri də Pakistan olub. Pakistan Azərbaycan əlaqələri cənab Prezidentin dövründə daima artan şəkildə inkişaf etmişdir. Cənab Prezidentin Pakistana səfər etməsi, Milli Məclis sədrinin Pakistana səfəri, deputat dostluq səviyyəsində keçirilən səfərlər bu münasibətləri daha da yüksək hüquqi müstəviyə çatdırmışdır.

Əlaqələrin belə inkişafı ilə bağlı Musa Quliyev fikrini belə izah edib: "Heydər Əliyev Fondunun, xüsusilə də Fondun rəhbəri Azərbaycan Respublikasının birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Pakistana, dəfələrlə, humanitar yardımlar göstərilmişdir. Məktəblər tikilmişdir, bağçalar açılmışdır, səhiyyə obyektləri tikilmiş, təmir olunmuşdur. Eyni zamanda Pakistanda, dəfələrlə baş vermiş təbii fəlakətlər zamanı Azərbaycan dövləti həm humanitar, həm də maddi dəstək göstərmişdir. 44 günlük Vətən müharibəsində Türkiyə ilə yanaşı Pakistan Azərbaycana ən yaxın siyasi, diplomatik və mənəvi dəstək verən dövlət kimi bizim xalqımızın yaddaşında qalacaq. Eyni zamanda Pakistan Azərbaycan münasibətləri iqtisadi, humanitar, mədəni müstəvidə də davam edir. Yüksələn xətlə də davam edəcək.

Pakistan Azərbaycan münasibətlərinin inkişaf etməsində parlamentin və parlamentlərarası dostluq qrupunun da mühüm əhəmiyyəti var. Elə bu ilin yazında parlamentin spikeri Sahibə Qafarovanın rəhbərliyi altında bizim nümayəndə heyətinin səfərinin olması, Pakistan parlament spikerinin rəhbərliyi altında nümayəndə heyətinin Azərbaycana gəlməsi, Şuşada olması və üçtərəfli Bakı bəyannaməsinin imzalanması, Pakistan, Azərbaycan, Türkiyə dostluğunu daha yüksək müstəviyə çatdırmışdır. Pakistan nüvə dövləti olan yeganə islam dövlətidir, müsəlman ölkəsidir, həm də güclü ordusu və ordu sənayesi olan bir dövlətdir. İqtisadiyyatı sürətlə inkişaf etməkdə olan bir dövlətdir. Şübhəsiz ki, Azərbaycan Pakistan münasibətlərinin inkişafı bütövlükdə İslam aləminə xoş bir nümunədir. Bu münasibətlərin inkişafında Pakistanın Kəşmir probleminin və Azərbaycanın vaxtı ilə mövcud olmuş Qarabağ probleminin eyniliyi bizi daha da yaxınlaşdırmışdı. Azərbaycan da Kəşmiri Pakistanın torpağı kimi tanıyır. İlk dövrlərdən də məhz Qarabağ probleminə görə, Ermənistanla diplomatik əlaqələri qurmayan ölkələr arasında olmuşdur. İndi şükürlər olsun ki, Qarabağ problemi öz həllini tapmışdır və şübhəsiz ki, buradakı yenidənqurma işlərində Pakistan şirkətlərini də biz məmnuniyyətlə dəvət edə bilərik".

***Turqay Musayev***

# ŞOK: Azərbaycan əhalisi bu il içki və siqaretə 1,4 milyard manat xərcləyib!



Bu ilin yanvar-avqust aylarında Azərbaycanda istehlakçılar tərəfindən içkilər və tütün məmulatlarına 1,378 mlrd. manat xərclənib. "İki sahil"in Dövlət Statistika Komitəsinin hesabatı əsasında apardığı hesablamalarına görə, bu rəqəm əvvəlki ilin analoji dövrü ilə müqayisədə 0,6% artıb.

Cari ilin təkcə avqust ayında sözügedən göstərici 174,7 mln. manat təşkil edib ki, bu da iyul ayı ilə müqayisədə 9,5% çoxdur. Qeyd edək ki, hesabat dövründə istehlakçıların pərakəndə ticarət şəbəkəsində xərclədiyi vəsaitin 5,2%-i içkilər və tütün məmulatlarının alınmasına sərf olunub.

# "Tikinti layihələrin həyata keçməsi asanlaşacaq"



"Ümumiyyətlə, Azərbaycan işğaldan azad olunmuş ərazilərdə infrastruktur və tikinti işləri həyata keçirir. Azad olunmuş ərazilərdə təkcə, əhalinin yerləşdirilməsi deyil, Azərbaycanın regional mövqeyinin güclənməsi də yeni bir fəaliyyət sahəsidir. Müasir Füzuli aeroportundan hərbi-siyasi məqsədlər üçün istifadə olunur". Bu sözləri SİA-ya açıqlamasında politoloq Məhəmməd Əsədullazadə deyib.

Onun sözlərinə görə, bəzi maraqlar problem olaraq qalır. Erməni silahlı dəstələri hələ də Qarabağda Rusiyanın məsuliyyəti altında olan ərazilərdən çıxarılmayıb.

Füzuli aeroportunun önəmi haqqında Məhəmməd Əsədullazadə fikrini belə izah edib: "Həmçinin, işğaldan azad edilmiş ərazilərdə infrastruktur layihələrinin həyata keçirilməsi, bu ərazilərdə aviareyslərin həyata keçirilməsi bir daha Qarabağ zonasını beynəlxalq aləmin subyektinə çevirəcək. Hərbi məqsədlər üçün Füzuli aeroportunun çox böyük loqistik əhəmiyyəti var. Buna görə də Azərbaycan tez bir zamanda belə bir aeroport layihəsini həyata keçirdi. Düşünürəm ki, Füzuli aeroportundan bir sıra uçuşlar, həmçinin, Azərbaycana tərəfdaş olan Qarabağda infrastruktur layihələrində çalışan ölkələrin yük təyyarələrinin Füzuli aeroportuna uçuşları baş tutacaq. Bununla da, tez bir zamanda tikinti layihələrin həyata keçməsi asanlaşacaq. Azərbaycanın regional mövqeyinin güclənməsində Füzuli aeroportunun hərbi, iqtisadi, siyasi önəmi olduqca böyükdür".

***Turqay Musayev***

# “Human Rights Watch” Ermənistanın Azərbaycana qarşı törətdiyi müharibə cinayətlərindən bəhs edən hesabat yayımlayıb

***“Human Rights Watch" II Qarabağ müharibəsi zamanı Ermənistanın Azərbaycana qarşı törətdiyi müharibə cinayətlərindən bəhs edən hesabat yayımlayıb.***

***“İki sahil” xəbər verir ki, hesabatda bildirilib ki, mühairbənin ilk günü Ermənistanın atdığı mərmi Azərbaycanın Naftalan şəhərində 13 yaşlı Şəhriyar Qurbanovu və onun 14 yaşlı əmisi qızı Fidan Qurbanovanı ailənin digər üç üzvü ilə birlikdə evlərinin həyətində öldürdü, müharibə zamanı daha 10 azərbaycanlı uşaq öldürülüb.***

Qeyd edilib ki, döyüşlər zamanı və sonrasında ”Human Rights Watch” tədqiqatçıları silahlı qüvvələrin mülki əhalini hücumdan qorumaq üçün beynəlxalq müharibə qanunları çərçivəsində üzərlərinə götürdükləri öhdəlikləri yerinə yetirib-yetirmədiklərini öyrənmək üçün araşdırmalar aparıblar.

Bu hesabat 27 sentyabr və 9 noyabr tarixləri arasında gedən döyüşlər zamanı məktəblərə edilən hücumları araşdırır və qarşıdurma zamanı məktəb uşaqlarına dəyən zərərin nəticələrini ortaya çıxarır.

Hesabata əsasən, Azərbaycanda 54 məktəb dağıdılıb və zərər görüb. Bir sıra uşaq baxçası, incəsənət və idman məktəbləri, texnikumlar hücuma məruz qalıb.

Azərbaycanın qədim karvan yolu üzərində yerləşən Tərtər şəhəri döyüşlər zamanı Ermənistan tərəfindən atılan raket və ağır artilleriya zərbələrinə məruz qalıb. Şəhərin əsas küçəsində olan demək olar ki, hər vitrin hücumlar nəticəsində darmadağın olub.

”Human Rights Watch” nəticəyə gəlib ki, erməni silahlı qüvvələrinin dəfələrlə şəhərin sıx məskunlaşmış yerlərinə qeyri-dəqiq, partlayıcı silah sistemlərindən istifadə etməsi hədəflərə fərq qoymadan baş vermişdir və beləliklə, bu, qanunsuz hücumdur.

Tərtər şəhərinin 1 nömrəli məktəbi artilleriya zərbələrinə məruz qalıb. Hücum nəticəsində həyətin qırmızı kərpic divarları üzərində dərin mərmi izləri qalıb, pəncərə çərçivələri və şüşələr sındırılıb, sinif otaqlarına ciddi ziyan dəyib. Dəymiş zərbədən yaxınlıqdakı uşaq bağçası da zərər görüb, pəncərə şüşələri dağılıb. Dəymiş ziyanı araşdırdığımız zaman məktəb gözətçisi məktəblər döyüşlərə görə bağlanmadan öncə 1300 şagirdin məktəbdə qeydiyyatdan keçdiyini deyib.

Tərtərdə 1 saylı məktəbdən bir neçə kilometr aralıda yerləşən 5 saylı məktəb hücuma məruz qalıb. Məktəb direktoru müsahibə zamanı bildirib ki, hücum nəticəsində sinif otaqları, pəncərələr və onlayn dərs vermək üçün müəllimlərin istifadə etdiyi kompüterlər darmadağın edilib, elektrik naqilləri kəsilib.

Bir az aralıda yaşayan 30 yaşlı Cavid Ağayevin sözlərinə görə, ən az üç artilleriyanın cəlb edildiyi digər bir hücum oktyabr ayının ortalarında baş verib və atılan mərmi Şıxarx orta təhsil məktəbini və eyni küçədə yerləşən musiqi məktəbini dağıdıb.

Hesabatda deyilir: ”Noyabr ayının əvvəllərində Tərtərdə kimliyinin açıqlanmasını istəməyən yüksək vəzifəli məmurla görüşdük. O, boz və zeytun rənglərinin kamuflyajından ibarət forma geyinmişdi. O, bizi şəhərin mərkəzində regional mərkəzin altında yerləşən zirzəmiyə apardı və bizə orada müharibə zamanı dəyən ziyanla bağlı uzun bir siyahı oxudu. Onun sözlərinə görə, on dörd dövlət məktəbi, üç uşaq bağçası və bir peşə məktəbi zədələnib və ya dağıdılıb. Hadisələr zamanı 17 mülki vətəndaş öldürülüb və 114.000 sakindən 10.000-i ərazidən evakuasiya edilməli olub. Biz Tərtərdə zərər görmüş məktəbləri ziyarət etdik və 5 hücum nəticəsində dəymiş ziyanın şahidi olduq.













Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncədə Kənd Təsərrüfatı Universitetində baytarlıq fənni üzrə dərs deyən Dr. K. Məmmədova bizə hücumun dəqiq tarixini 5 oktyabr səhər 2:37 radələrində olduğunu qeyd edib və hücum zamanı öz keçmiş məktəbi olan 4 saylı orta məktəbin dağıdıldığını vurğulayıb.

Məktəbin arxa girişinin qarşısındakı küçəyə düşən artilleriya raketi Rusiya istehsalı Smerch (Tornado) olub, milli Minatəmizləmə Agentliyi bildirib. Qeyd edilib ki, Smerch 7,6 metr uzunluğunda olub, 258 kiloqram yüksək partlayıcı daşımaq qabiliyyətində olub. Partlayış məktəbin arxa qanadındakı pəncərələri və qapıları, sinif otaqlarını dağıdıb və daxili həyətin qarşı tərəfindəki otaqların pəncərələrini sındırıb.

Gözətçinin sözlərinə görə, məktəbdə 3200 şagird qeydiyyatdan keçib”.

## 8 oktyabr

Şahidlər bildirir ki, saat 11 -də başqa bir Smerch raketi Azərbaycanın üçüncü böyük şəhəri olan Bərdədə 5 nömrəli orta məktəbin həyətinə düşüb. Məktəb 1500 şagirdə bağlı olsa da müharibə nəticəsində evlərindən didərgin düşmüş 300 nəfər üçün sığınacaq kimi fəaliyyət göstərib. Məktəb direktoru Teymur Həmidov bildirib ki, hücum zamanı 15 müəllim və digər heyət üzvləri məktəbdə olub. 5 nəfər xəsarət alıb.

Həmidovun sözlərinə görə, raket ölümcül döyüş başlığını mümkün ki, yerə dəymədən öncə sərbəst buraxıb, o, yarı yerə batmış və quyruğu ”üç metr yuxarıya doğru havada” olub.

## 14 oktyabr

Səhər saat 10-da iki ağır artilleriya raketi Tərtərin iki kilometr uzaqlığında yerləşən Düyərli kənd məktəbinin həyətinə düşüb. Üçüncü raket məktəbin damına dəyərək beş sinif otağını yararaq keçib və bütün məktəbi yandırıb.

Əlli yeddi yaşlı müəllimə Arzu Quliyeva hadisə zamanı yolun digər tərəfində yerləşən evində olub. Raketin qalıqları onun damına da dəyib və yanğın başlayıb. Quliyevanın həyat yoldaşı yanğınsöndürmə xidmətinə zəng vurmağa çalışıb, lakin telefon xətti hücum nəticəsində kəsilib. Onun dediklərinə görə, o, yoldan keçən maşınlara qışqıraraq yanğınsöndürənləri köməyə çağırmasını xahiş edib.

Sakinlər və yanğınsöndürənlər alovlarla mübarizə aparmaq üçün təzəcə toplaşıblar ki, dördüncü raket atılıb. Yerli nümayəndə hücum nəticəsində yaralanan yeddi mülki vətəndaşın adını açıqlayıb.

Həyat yoldaşı məktəbin müəllimi olan 44 yaşlı Namiq Süleymanov bizə məktəbin həyətyanı ərazisində artilleriya mərmisinin yaratdığı iki krateri göstərib. Biz, eyni ərazidə hələ də qalmaqda olan mərmi parçalarının şahidi olduq. Məktəbin arxasında biz L şəkilli xəndək gördük. Süleymanovun sözlərinə görə, bu, sığınacaq olub. Hücumlar səbəbindən bu qorunmaq planı ləğv edilmişdi.

Bir məktəbi və ya mülki ərazini qəsdən hədəfə almaq müharibə cinayəti sayılır.

## 17 oktyabr

Saat 1.30 radələrində iki Scud-B ballistik raket Azərbaycanın ikinci ən böyük şəhəri Gəncəni vuraraq 21 nəfərin ölümünə səbəb olub. İlk partlayış Muxtar Hacıyev küçəsindəki evləri dümdüz edərək 250 metr aralıda yerləşən 29 saylı orta təhsil məktəbini və 10 nömrəli uşaq bağçasını dağıdıb. Zərbə hətta 850 metr aralıda yerləşən 18 saylı məktəbin pəncərələrini sındırıb. Hücum zamanı 10 mülki vətəndaş evlərində həlak olub. Onların dördü 29 saylı məktəbin şagirdləri olub - 11 yaşlı Orxan, onun bacısı 6 yaşlı Məryəm, həmçinin onların digər bacısı və anası; nənəsi tərəfindən himayə edilən 13 yaşlı Artur və digər 4 ailə üzvləriylə birlikdə həlak olan 14 yaşlı Nigar.

Məktəbin həyəti şüşə qırıntıları, dağılmış taxta pəncərələrin qalıqları və sınmış parta və oturacaqlarla dolu idi. Dağıntıları qeydə alan məktəbin rəhbərliyi bizə bildirdi ki, məktəb evləri dağılmış şagirdlərlə əlaqəni itirib: ”Onların indi harda olduğunu təsbit etmək asan deyil və bu səbəbdən onları distant təhsillə təmin edə bilmirik.” Məktəb digər tələbələr üçün onlayn tədris üsulu ilə təhsili davam etdirməyə cəhd edirdi.

Scud-B raketləri özləri ilə birlikdə təxminən 1000 kiloqram həcmində yüksək partlayıcı daşıya bilər. 1960 ci ildə Sovet İttifaqında istehsal edilən raketlərin təxminən 100 metrə yaxın qeyri-dəqiq radiusu var. Bu tip silahlar qeyri-dəqiq hesablamayla daha geniş ərazini dağıtmaq gücünə sahibdir.

## 2 noyabr

Ermənistanla təmas xəttindən bir neçə kilometr məsafədə yerləşən Azərbaycanın Ağdam rayonunun Məhrizli kəndində raket səhər saat 6 radələrində kəndin yeganə məktəbinin sinif otaqlarını vurub. Hücum zamanı məktəbin divarları, qapısı, pəncərələri və ləvazimatlar dağılıb. Oktyabrın 10-da baş vermiş digər bir artilleriya hücumu artıq məktəbin həyətini vurub ziyan yetirmişdi. Məktəbin 300 şagird və 35 müəllim heyəti var idi.

## Atəşkəsdən sonra

Noyabrın 9-da Azərbaycan hərbi qüvvələri Şuşa (Bu şəhər 1990-cı illərin əvvəlindən başlayaraq ermənilərin nəzarətində olub) şəhərinə nəzarəti ələ aldıqdan sonra Azərbaycan prezidenti və Ermənistan baş naziri Rusiyanın vasitəçiliyi ilə atəşkəs müqaviləsi imzalayıb və bununla döyüşlərə son qoyulub.

Azərbaycan 6-həftəlik müharibədən sonra nəzarətə aldığı ərazilərin yenidən bərpası üçün 2.2 milyard manat (US $1.29bn) ayırıb. İlkin 7 milyon manat dağılmış məktəblərin təmirinə ayrılıb. Azərbaycan təhsil naziri bizə bildirib ki, ”uşaqlar üçün əlverişli şəhərlər” tikmək üçün beynəlxalq ictimaiyyətlə əməkdaşlıq edəcəklər. Ərazilər basdırılmış minalarla doludur və infrastrukturun böyük hissəsi dağılıb. 1990 -cı illərdən bəri mina qurbanlarının dörddə birindən çoxu uşaqlar olub.

Hesabatda o da qeyd edilir ki, ABŞ hərbi strateqləri, deyilənlərə görə, Azərbaycanın döyüş meydanında uğur qazanmasında rolu olan Türkiyə və İsrailin pilotsuz uçuş vasitələrinin - dronların oynadığı rolu öyrənirlər.

# Böyük bəstəkar Arif Məlikov - milyonların sevimlisi



***Bir ömrün məktəbini zəngin edən, ona naxış salan sənətə olan ilahi sevgi, əməllər, istedad, bacarıq və zəhmətdir. Bu ömür paylandıqca insanın əfsanəyə çevrilən nurlu əməlləri dünyaya işıq saçır, onu rövnəqləndirir. Bir tarix yazan ömürdə neçə-neçə illərin izləri var. Azərbaycan xalq artisti, professor, Azərbaycan SSR Dövlət mükafatı laureatı, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, Avrasiya Akademiyasının qurucu üzvlərindən biri, dünyaşöhrəli bəstəkar Arif Məlikov kimi.***

Yaşadığı ömür yolunun izləri yaradıcılığına həkk olunub. Hər bəstəsində bir ömür canlanır. Dünyanın istənilən nöqtəsinin zövqlü musiqisevəri Arif Məlikov yaradıcılığına valeh olur. Arif Məlikov elə bir bəstəkardır ki, parlaq istedadı və özünəməxsusluğu ilə sərhəd tanımadan əsərləri dünyanı dolaşmışdır. Əsərlərində milli musiqi ənənələrini yaşadaraq mütərəqqi təfəkkürə malik yaradıcılığının əks etdirmişdir. Klassika ilə yeni düşüncənin vəhdətində möhtəşəm musiqi əsərlərini yaratmağa müvəffəq olmuşdur. Dolğun məzmun, obrazların dərin emosional-psixoloji ifadəsi onun yaradıcılığının səciyyəvi cəhətləridir.

Cismən aramızda olmasa da, ruhən qəlblərdə sənət tariximizdə yaşayan Arif Məlikovun 13 sentyabr tarixi doğum günüdür. Tərcümeyi- halında qeyd olunduğu kimi, 1933-cü ildə Bakı şəhərində anadan olan sənətkar 1960-ci ildə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasını Qara Qarayevin bəstəkarlıq sinfi üzrə bitirmişdir. Həmin ildən orada dərs deməyə başlamış, ömrünün sonuna kimi bu təhsil ocağında professor və bəstəkarlıq kafedrasının müdiri kimi çalışmışdır. Onun qısa bir zamanda şöhrət tapmasında görkəmli türk şairi Nazim Hikmətin librettosu əsasında yazdığı ilk böyük əsəri "Məhəbbət Əfsanəsi" baleti olmuşdur. Gənc yaşlarında - 1961-ci ildə Leninqrad akademik opera və balet teatrının səhnəsindəki ilk tamaşadan dərhal sonra Arif Məlikov şöhrətləndi. Tanınmış bəstəkar D.Şostakoviç yazırdı: "Arif Məlikov istedadlı bəstəkardır, onun musiqisi əsl peşəkar musiqidir. Partituranın dərin musiqi dramaturgiyası, onun daxili inkşafı, qəhrəmanların musiqi səciyyələrinin dəqiqliyi və ifadəliyi, orkestrovkada nadir ustalıq, onun xüsusi rəngarəngliyi, çoxlu tapıntılar bu gözəl musiqi əsərini böyük maraqla dinləməyi məcbur edir".

Bəstəkarın sonrakı yaradıcılıq uğurlarından biri özbək yazıçısı Ş.Rəşidovun "İki qəlbin kitabı" əsəri əsasında yaratdığı "İki qəlbin poeması" baleti olmuşdur. Rəqqasə Komde və müğənni Modan haqqındakı qədim Şərq əfsanəsi baletdə əsl fəlsəfi ümumiləşdirmə zirvələrinə qaldırılaraq sənətin əbədiliyinin, qüdrətinin rəmzinə çevrilmişdir.Bəstəkarın musiqi mədəniyyətimizin çoxəsrlik tarixə malik bünövrəsi zəminində və müasir kompozisiya texnikasını mükəmməl mənimsəyib yüksək professionallıqla yaratdığı simfoniya, balet, operetta, kantata, vokal, kamera və instrumental əsərlər misilsiz sənət nümunələri olaraq Azərbaycan musiqi xəzinəsinin qiymətli inciləri sırasında özünə həmişəlik yer tutmuşdur. Onun kino və dram tamaşalarına yazdığı musiqi, eləcə də romans və mahnıları məşhur sənətkarların ifasında səslənərək, geniş populyarlıq qazanmışdır. Arif Məlikovun bəşəri idealları özündə dolğun əks etdirən əsərləri ölkəmizin hüdudlarından kənarda bu gün də uğurla səsləndirilməkdədir. Arif Məlikovun əsərləri dünyanın bir çox ölkələrində - Rusiya, ABŞ, Böyük Britaniya, Fransa, Yaponiya, Türkiyə, Braziliya, Avstriya, Norveç, Finlandiya, İtaliya, Misir, Tailand, Yuqoslaviya, Bolqarıstan, Ruminya, Macarıstan, Çexiya, Slovakiya, Polşa, Almaniya, Özbəkistan, Qazaxıstan, Moldova, Ukrayna və Gürcüstanda ifa olunmuşdur.2016-cı ildə Arif Məlikovun 28 cilddən ibarət "Not əsərlərinin tam külliyyatı" çap olunub.

"Ölümdən güclü" baleti, "Yer üzündə iki nəfər" baleti, "Əlibaba və qırx quldur"baleti, "İki ürək dastanı" baleti, Simfonik əsərləri, Simfonik poemaları, Kamera instrumental əsərləri, və s. yaratdığı əsərlər qəlbinin hökmü ilə nota köçürülüb. "Azərbaycan" balladası, 8 nömrəli simfoniya və digər teatr tamaşalarına yazdığı musiqiləri insanın daxili dünyasını fəth edir. Böyük ürək sahibi olan bəstəkarın geniş dünyagörüşü onun musiqisindən sezilir. Hər bir musiqi əsəri orijinallığı ilə fərqlənir və bu musiqilərdə insan düşüncəsi rahatlıq tapmaqla yanaşı, sanki bütün dünyanı dolaşır, bütün dünyanı görür. Nə yazdısa ürəyinin səsi, qəlbinin hökmü ilə yaratdı. Təbiət lövhələri, sevgi, ümumbəşəri məsələlər, lirik düşüncələr və s. mövzu rəngarənliyi onu milyonların sevimli bəstəkarına çevirdi.

Böyük bəstəkar sənət tariximizdə böyük müəllim kimi də yer alıb. Onun sinfində təhsil alan istedadlı gənc bəstəkarlar öz müəllimlərindən sənətin sirlərini dərindən öyrənmiş, Arif Məlikova layiq bəstəkar kimi yetişmişlər.Yaradıcılığı və fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Belə ki, o, "Azərbaycan SSR əməkdar incəsənət xadimi" fəxri adına, "Şərəf Nişanı" ordeninə, "Azərbaycan SSR xalq artisti" fəxri adına, "İstiqlal" ordeninə, "Heydər Əliyev" ordeninə, Nizami Gəncəvi adına Qızıl medalına, "Şöhrət" ordeninə və s. layiq görülüb. Bu onun böyük sənətkar olmasından irəli gəlir.

Arif Məlikov 2019-cu il il mayın 9-da 85 yaşında dünyasını dəyişib, Bakıda I Fəxri Xiyabanda dəfn olunub. Bu gün aramızda olmasa da sənət dünyası, yaradıcılıq irsi, yaratdığı bəstəkarlıq məktəbi onun musiqi dünyamızda əbədi olaraq yaşayacağından xəbər verir.

***Zümrüd BAYRAMOVA***

# Azərbaycanda elektron kitab oxuyanların sayı 3 milyona çatıb

***Bu il Milli Kitabxananın elektron kitabxanasının "onlayn oxu" düyməsi vasitəsilə elektron kitab oxuyanların sayı 3 milyon nəfərə çatıb.***





"İki sahil" xəbər verir ki, bu barədə Azərbaycan Milli Kitabxanasından məlumat verilib. Bildirilib ki, hazırda Milli Kitabxananın Elektron bazalarında 1 322 289 elektron resurs var: "COVID-19 pandemiyasının yaratdığı fəsadlar Milli Kitabxanadan da yan keçməyib. 2020-ci il mart ayının 11-dən etibarən Milli Kitabxana öz fəaliyyətini onlayn rejimdə davam etdirir. Pandemiya ilə əlaqədar kitabxana daxilində oxuculara xidmət dayandırıldığı üçün qısa zaman kəsiyində istifadəçilərə kitabxana-informasiya xidmətini virtual rejimdə təqdim etmək üçün xidmət miqyasını genişləndirərək, kitabxananın saytında yeni "Onlayn xidmətlər" pəncərəsi yaradılıb. Onlayn xidmətlər pəncərəsinin "Biblioqrafik sorğu", "Elektron sifariş", "Metodiki xidmət" bölmələri daim aktivdir və istifadəçilərin elektron informasiya tələbatının ödənilməsində böyük əhəmiyyət kəsb edir. Pandemiya şəraitində Milli Kitabxananın saytındakı "Elektron sifariş" bölməsi vasitəsilə 92 min 850 istifadəçiyə 175 min 523 resurs göndərilib. Pandemiyanın yaratdığı maneələrə baxmayaraq 2020-2021-ci illər ərzində Milli Kitabxanada robot skanerlər, portativ skanerlər və rəqəmsal fotoaparatlar vasitəsi ilə çəkilmiş və qrafik proqramlarda işlənmiş 69 min 234 tammətnli elektron resurs hazırlanıb".

Məlumatda həmçinin qeyd olunub ki, Milli Kitabxananın Elektron kitabxanasından elektron kitab oxuyanların sayı daima artmaqdadır:

"2019-cu ildə Milli Kitabxananın elektron kitabxanasından onlayn oxu düyməsi vasitəsilə elektron kitab oxuyanların sayı 1 250 724 olmuşdusa, 2020-ci ildə artaraq 2 996 278 olub. 2021-ci ilin göstəricilərinə görə bu rəqəm 3 000 000-dur. Pandemiya şəraitində Milli Kitabxananın əməkdaşları tərəfindən 36 Elektron məlumat bazası (http://www.millikitabxana.az/databases), 86 virtual sərgi (http://www.millikitabxana.az/projects/1) hazırlanaraq istifadəçilərə təqdim edilib.

Eyni zamanda Azərbaycan Milli Kitabxanasının əməkdaşları 81 ölkənin musiqi irsini özündə birləşdirən Beynəlxalq Petruççi Musiqi Kitabxanasının Azərbaycan bölməsində "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanunun icazə verdiyi və ya müəlliflərin özləri tərəfindən rəsmi icazə verilən Azərbaycan xalq mahnıları və bəstəkarlarının 300-dən çox musiqi əsərinin notlarını, habelə Azərbaycanın korifey ifaçılarının səs yazılarını MP-3 formatında "Petruççi Musiqi Kitabxanası"nda (www.imslp.org) yerləşdiriblər".



# “Bəlkə də qaytardılar”...bu dəfə Qarikin ifasında...

***..Deməli, haradaydı o, deyirdi ki, ümid hələ də var və bu ümid uçurumun bir addımlığında olmasına baxmayaraq, hələ ki, tükənməyib. Amma burada mənə elə gəlir ki, bu düzgün deyim deyil. Əslində elə ”ümid sonda ölür” məsəli də bəzi hallarda yerinə düşmür. Çünki bunların ümidi elə ilk günlərdə ölüb deyə, indi də dillərinə güc veriblər...nə isə, çox baş aparmayaq.***



Beləliklə, ötən gün ermənilərin yeni bir ”dilinə güc verəni” peyda olub: politoloq Qarik Keryan. Deməli, bu erməni politoloq da ermənilərin ölmüş ümidlərinin ”dirilmə” ehtimalına öz töhfəsini verməyə çalışaraq, əsl erməni politoloqu olduğunu sübut etməyə çalışıb.

Deməli, onun dediyinə görə, bu gün artıq ruslar həmişə onlara müti qul olmuş sadiq ermənilərə qarşı son illərdə etdikləri ”böyük səhvi” anlayaraq yenidən ermənilər tərəfə əyilməyə başlayıblar: ”Bu gün Rusiya səhvini anlayıb yenidən ermənipərəst mövqeyə doğru sürüklənməyə başlayıb. Bunun da səbəbləri var. Çünki ruslar Qarabağ məsələsində Türkiyə və Azərbaycanla əməkdaşlıqda kobud səhvə yol verdilər”. Deyim ki, bunu Qarik Keryan erməni saytlarından birinə danışarkən bildirib.

Onun sözlərinə görə, əgər türklər ruslarla, doğrudan da, dostdurlarsa, bəs onda niyə türklərin XİN rəhbəri Kiyevdə keçirilən ”Krım Platforması” zirvə toplantısına qatıldı? Niyə, Krımın Ukraynanın ayrılmaz bir parçası olduğunua səs verdi?

Amma türklərdən fərqli olaraq biz ermənilər nə tədbirə qatıldıq, nə də səsvermədə iştirak etdik.

Əslində, biz həmin tədbirə dəvətli olmasaq da, amma ruslar bilirdilər ki, biz tədbirə dəvətli olsaydıq da onların dediklərindən kənara çıxmazdıq, yəni rusların əleyhinə səs-zad verməzdik, axı biz ... əhdə sadiq millətik...

Keryana görə, ruslar Azərbaycan məsələsində də aldanıblar. Çünki, Moskvanın əsas məqsədi əvvəldən Azərbaycanı Avrasiya İqtisadi Birliyinə inteqrasiya etmək olub. Qarik bu barədə ”məxfi məlumata” malik olduğunu da gizlətmir.

...Guya Azərbaycan ruslar qarşısında şərt qoyub: ”Qarabağ məsələsini həll edin, mən gələcəm”. İndi də ruslar gördülər ki, Qarabağla bağlı ”qərar”dan sonra da Azərbaycan gəlmədi və hətta əksinə - Türkiyə ilə daha da yaxınlaşdı.

Keryanın fikrincə, bu paradoksal görünə bilər, amma bu gün Qarabağ probleminin köklü şəkildə müzakirəsi üçün müharibədən əvvəlkindən də daha əlverişli şərait yaranıb. Amma burada yeganə problem odur ki, Azərbaycan tərəfinin danışıqlar masasına oturması çox çətin olacaq. ”Əslində danışıqlar masasında yalnız ”artsax”ın statusu məsələsi qaldığından, mənə elə gəlir ki, Azərbaycan heç bir halda bu masada oturmayacaq”. Bunu da erməni politoloq etiraf edir. Bəs, belə olan halda görən ermənilərin ölən ümidləri, yenidən dirilib nəyəsə ümid edə bilərmi?

..Allah Sizə rəhmət eləsin, Mirzə Cəlil, belə görünür ki, Sizin o məhşur ”Bəlkə də qaytardılar” əsəriniz hələ də öz aktuallığını qoruyub saxlamaqdadır.

***Ağasəf Babayev***

# ”Azərbaycan qəti olaraq onların qabağına şərt qoymalıdır” - POLİTOLOQ AÇIQLADI

***“Rusların Azərbaycanın Laçın dəhlizinə nəzarət etmək istəyini qəbul etmək istəməməsinin bir neçə səbəbi var. Təbii ki, burada birinci önəmli cəhət Rusiyanın imici məsələsidir, yəni ruslar hesab edirlər ki, əgər Azərbaycan Laçın dəhlizini nəzarətə götürərsə, həm beynəlxalq ictimaiyyət arasında, həm də erməni cəmiyyəti arasında Rusiyaya qarşı aqressiyanın artmasına, inamsızlığın artmasına səbəb ola bilər. Ruslar hesab edirlər ki, əgər Azərbaycan Laçın dəhlizini nəzarətə götürərsə, erməni cəmiyyətində ruslara qarşı inam aşağı düşəcək". Bu sözləri SİA-ya açıqlamasında politoloq Samir Hümbətov deyib***

Onun sözlərinə görə, ikinci məsələ ondan ibarətdir ki, ”sülhməramlı qüvvələri” həmin ərazilərdə nəzarəti həyata keçirmək funksiyasını üzərinə götürsə də, amma bu funksiyanı yetərincə normal şəkildə yerinə yetirmir. Ruslar hesab edirlər ki, ərazilər bunların nəzarətindədirsə, onlar istədikləri formada davrana bilərlər.

Samir Hümbətov Laçın dəhlizinə nəzarət ilə bağlı fikirlərini belə izah edib: ”Təbii ki, Azərbaycan tərəfi müxtəlif variantlarla, müxtəlif yollarla Laçın dəhlizinə kənardan müşahidə aparmaqla, texnologiyalar vasitəsilə nəzarət edir. Amma rusların bu addımları ona hesablanıb ki, yəni misal üçün bu gün xaricdən gələn qonaqların, yunan deputatların qondarma rejimin ərazisinə səfərləri ilə bağlı artıq məlumatlar yayılıb. Bundan əvvəl İran dövlət nömrə nişanlı tırların Qarabağa gəlməsi məlumatı yayıldı, ondan əvvəl Fransadan olan nümayəndələrin qondarma rejimə, yəni Qarabağ ərazisinə səfəri ilə bağlı məlumatlar yayıldı. Belə misallar çoxdur. Bununla demək istəyirəm ki, rus sülhməramlılar bu səfərlərin baş tutmasına şərait yaradırlar, göz yumurlar.

Ruslar elə hesab edirlər ki, bu dəhlizi əldən versələr, rus ”sülhməramlıları”nın özlərinə uyğun fəaliyyətləri məhdudlaşacaq. Məqsəd bundan ibarətdir. Hesab edirəm ki, rusların nə düşünməsindən asılı olmayaraq Azərbaycan tərəfi Laçın dəhlizinə nəzarəti tam şəkildə nəzarətə götürməlidir. Azərbaycanın sərhəd qüvvələri Laçın dəhlizində post qurmalıdır. Rus sülhməramlıları onsuz da müqavilənin şərtlərinə əməl etmir. Yəni onların üzərinə düşən təkcə, Laçın dəhlizinə nəzarətlə yekunlaşmır, yaxuddakı Qarabağın müəyyən ərazilərinə deslakasiya olunması ilə yekunlaşmır. Onların üzərinə düşən öhdəlik erməni terrorçu dəstələrini Qarabağ ərazisindən çıxarılmaqdır ki, hələ onu həyata keçirmirlər. Azərbaycan qəti olaraq onların qabağına şərt qoymalıdır. Ya onları çıxardırsız, ya biz dediyimiz bütün tələbləri yerinə yetirirsiz, yaxud da təbii ki, burada qanuni şəkildə 10 noyabr 2020 və 11 yanvar 2021-ci il üçtərəfli müqavilələrə əsasən ya dediklərimizə əməl edirsiniz, yaxud da biz Laçın dəhlizini bağlayırıq. Sülhməramlıların fəaliyyəti ondan sonra bəlli olacaq. Çünki zaman-zaman rus ”sülhməramlıları” Qarabağın müxtəlif ərazilərində hərbi təlimlər keçirib. Bu nizamnaməyə qətiyyən uyğun deyil, yəni daban-dabana ziddir. Üstəlik bu təlimlərə pulemyotdan atmaqdır, artileriya atışlarıdır, üstəlik məhv edilən erməni silahlı qüvvələrinin qalıqlarını gətirib hərbi təlimlərə cəlb edirlər. Üstəlikdə Qarabağ ərazisində qondarma rejimin fəaliyyət göstərdiyi ərazilərdə yaşayan erməni əsilli şəxslərdən istifadə edərək silahlı dəstələr yaradırlar. Təlimlər keçirirlər.



Hesab edirəm ki, Azərbaycan üçün yetərli imkanlar var. Təbii ki, müəyyən zaman ərzində Laçın dəhlizinin bağlanması və Azərbaycanın nəzarətinə verilməsi məsələsi gündəmə gəlməlidir və gəlir də. Bir şərtlə Laçın dəhlizi işləyə bilər ki, Azərbaycan Silahlı Qüvvələri ora nəzarət etsin. Təbii ki, rus sülhməramlıları da dəhliz boyu Xankəndi ərazisinə qədər olan 5 kilometrlik 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli bəyanata uyğun olaraq nəzarət edə bilər. Amma qəti olaraq Azərbaycan Laçın dəhlizini rusların tam ixtiyarına verməməlidir. Əgər verərsə, bundan sonraki müddətdə də ermənilər tərəfindən provakasiyaların sayı artacaq. Hətta onu deyərdim ki, böyük itkilərə səbəb olcaq addımların atılması da gözlənilləndir”.

***Turqay Musayev***

# Hərbi hissədə əsgəri intihara təhrik edən çavuş həbs olundu




***Hərbi hissədə əsgəri intihara təhrik edən çavuş həbs olunub. Baş Prokurorluqdan SİA-ya verilən məlumata görə, sentyabrın 6-da Müdafiə Nazirliyinin N saylı hərbi hissəsinin hərbi qulluqçusu əsgər Məmmədağa Məlikzadənin odlu silahdan atəş açmaqla özünü öldürməsi faktı əsasında Hərbi Prokurorluğun İstintaq idarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə istintaq aparılır.***

İstintaqla N saylı hərbi hissəsinin baş çavuşu Fərəməz Abasovun rəis kimi hərbi xidmət üzrə vəzifələrin yerinə yetirilməsi zamanı və belə vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar tabeliyində olan şəxsə- əsgər Məmmədağa Məlikzadəyə qarşı zor tətbiq etməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Fərəməz Abasov Cinayət Məcəlləsinin 329.2.1-ci (tabelikdə olan hərbi qulluqçuya qarşı zorakı hərəkətlər təkrar törədildikdə) maddəsi ilə təqsirləndirilən şəxs qismində istintaqa cəlb edilməklə Bakı Hərbi Məhkəməsinin müvafiq qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilmişdir. Hazırda cinayət işi üzrə istintaq davam edir.

# Paşinyan geri çəkildi: Azərbaycan Zəngəzur dəhlizini açacaq



***Ötən gün Ermənistanın baş naziri Nikol Paşinyan regional kommunikasiyaların açılması məsələsində qətiyyətli olduğunu bildirib. O, dolayısı ilə Zəngəzur dəhlizi layihəsinin bərpasına razı olduğunu gizlətməyib.***

"Bizim üçün Rusiya və İranla dəmir yolu əlaqəsi qurmaq çox vacibdir. Məsələnin həlli üçün Rusiya-Azərbaycan-Ermənistan üçtərəfli razılaşması əsasında danışıqlar aparırıq. Azərbaycan da özünün Qərb əraziləri ilə Naxçıvan arasında əlaqə yaratmağı hədəfləyir. Bakının Naxçıvanla da əlaqə qurmaq istədiyini anlayaraq, konkret nəticələr əldə etmək üçün səy göstərməyə qərarlıyıq və hazırıq", - deyə Paşinyan çıxışında vurğulayıb.

Maraqlıdır, Ermənistan rəhbərinin bu çıxışı onun Azərbaycanın şərtlərini qəbul etməsindən xəbər verir, yaxud Paşinyan bununla Bakıya nə demək istəyir?

"İki sahil" xəbər verir ki, jurnalist-tədqiqatçı, ermənişünas alim Qafar Çaxmaqlı Modern.az-a açıqlamasında bildirib ki, Paşinyanın Zəngəzur dəhlizi ilə bağlı son çıxışı Azərbaycanın diplomatik siyasətin nəticəsidir.

Q.Çaxmaqlı qeyd edib ki, Ermənistanın dəhlizi açmaqdan başqa yolu yoxdur: "Dəfələrlə deyilib ki, Paşinyan razı olmasa, Azərbaycanın əlində çox önəmli silahlar var ki, biz onu tədbiq edə bilərik. Oxşar addımı Zəngəzurda tətbiq etdik. İki gün Gorus-Qafan yolu bağlandı. Bundan sonra ermənilər anladılar ki, Azərbaycan qalib tərəfdir, onun dedikləri olmalıdır. Zəngəzurun alternativi yoxdur. Bu yol açılmalıdır, çünki dəhliz region ölkələrinin də maraqlarına uyğundur. O cümlədən, Ermənistanın öz maraqlarına da uyğundur. Çünki Ermənistan bu dəhlizin açılması ilə öz yüklərini Rusiya, İran, Gürcüstan kimi ölkələrə göndərir. Bu kimi ölkələrlə digər başqa layihələri də var. Dəhliz açılmazsa, bu layihələr batacaq. Bu mənada Ermənistanın başqa çıxış yolu yoxdur. Məncə, yaxın vaxtlarda tikinti işlərinə başlamaq olar".



Ermənişünas alim vurğulayıb ki, Paşinyanın Tbilisidə verdiyi başqa bir mesaj Ermənistanın Azərbaycanla sülh müqaviləsinə getməsi ilə bağlıdır: "Bu da Ermənistanın ayrı çıxış yolunun olmamasını göstərir. Azərbaycan və Ermənistan arasında sərhədlərin müəyyən edilməsi ilə bağlı Azərbaycan tərəfi çox ciddi şərtlər irəli sürə bilər. Əvvəlcə Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımalıdır. Bu baş verməsə, sülh sazişinin bağlanması yəqin ki, mümkün olmayacaq. Çünki ərazi bütövlüyü qarşılıqlı şəkildə tanındıqdan sonra Ermənistanın Qarabağ iddialarından tamamilə əl çəkəcəyi görünür".

"Paşinyan, həmçinin Türkiyə ilə əlaqələrini yaxşılaşdırmaq istəyir. Sərhədlərin açılmasına razıdır, bu işə müsbət baxır. Əlbəttə, bu məsələdə Türkiyənin şərtləri ola bilər. Çox güman ki, Türkiyənin şərtlərindən biri Zəngəzurla bağlı olacaq. Digəri isə erməni ideologiyasından imtina edilməsidir. Bu da Türkiyəyə qarşı ərazi iddiaları ilə əlaqədardır. Belə şərtlər əsasında sərhədlər açıla bilər, bununla da Ermənistanın iqtisadiyyatı canlanacaq".

# Doğrudanmı, "geriyə dönüş yoxdur?"...

## *Putin və Lukaşenko inteqrasiya yolunda böyük bir addım atdılar*

***Beləliklə, Putin və Lukaşenko inteqrasiya yolunda böyük bir addım atdılar. Yəni belə görünür ki, Rusiya və Belarus prezidentlərinin çoxsaylı görüşləri nəhayət ki, məntiqi nəticəsini verdi. Belə ki, 4 saat davam edən danışıqlardan sonra Vladimir Putin və Aleksandr Lukaşenko iki ölkənin inteqrasiyası üçün 28 yol xəritəsinin hamısının razılaşdırıldığını elan etdilər.***

İndiyə qədər Putin və Lukaşenko konkret bir sənəd şəklində heç bir şeyi ictimaiyyətə təqdim etməsələr də, amma indi strateji bir qərarın verildiyi aydındır. Beləliklə, Minsk üçün həssas qaz məsələləri də daxil olmaqla bütün uyğunsuzluqlar aradan qaldırıldı. Göründüyü kimi, Batkanın tez-tez xatırladığı suverenlik itkisinə olan qəzəbi

Qeyd edək ki, razılaşdırılan 28 bəndin çoxu iqtisadiyyatla bağlıdır. Yəni ölkələr vahid sənaye və makroiqtisadi siyasətə keçməyə qərar verdilər. Rusiya və Belarusiya ödəniş sistemləri inteqrasiya olunacaq. Bildirək ki, Lukaşenko yaxın gələcəkdə vahid valyutanın müzakirə olunacağını da istisna etməsə də, amma Putin bu barədə danışmağın hələ tez olduğunu Lukaşenkonun diqqətinə çatdırıb. Yəni bu barədə danışmaq hələ tezdir və ilk növbədə, makroiqtisadi siyasətlə bağlı razılığa gəlmək lazımdır. Yəni 28 yol xəritəsinə uyğun olaraq informasiya təhlükəsizliyi, gömrük, vergi və enerji sahələrində əməkdaşlıq dərinləşdirilməlidir.

Putinlə Lukaşenko enerji sektorunda da ortaq dil tapdılar. Rusiyadakı vergi manevrindən sonra Belarus təmizlənmiş rus yanacağını Avropaya sərfəli qiymətə satmaq imkanından məhrum edildi. Bundan əlavə, Lukaşenko Rusiyanın qardaş ölkəyə qazı çox baha satmasından daim şikayətlənirdi.

Ancaq bir gün əvvəl iki prezident 1 dekabr 2023 -cü ilədək vahid enerji bazarı yaratmaqla bağlı qəti qərar verdilər. Birlik dövləti təkcə iş adamları üçün deyil, vətəndaşlar üçün də eyni şəraiti təmin edəcək. Rusiya və Belarus vətəndaşları sosial və iqtisadi sahələrdə bərabər hüquq və imkanlardan istifadə edəcəklər. Putinin sözlərinə görə, onların həyat səviyyələrini yaxşılaşdırmaq üçün də şərait yaradılacaq.

İnteqrasiya təhlükəsizlik sahəsində əməkdaşlığı nəzərdə tutur. Lukaşenko və Putin ortaq müdafiə məkanının yaradılması məsələsini müzakirə ediblər. Bu prosesin bir hissəsi Qərbin müntəzəm hərbi təlimləridir. Lukaşenko iki ölkənin hərbi təhdidlərə qarşı mübarizəni gücləndirəcəyini bildirib. Belarusiya məsələsində, sərhədləri yaxınlığında davamlı olaraq keçirilən hərbi təlimlər və NATO ölkələri tərəfindən Lukaşenkanın devrilməsi cəhdləri nəzərə alınmaqla, bu olduqca aktual bir məsələdir. Putin bu barədə Federal Məclisə mesajında açıq şəkildə danışdı və Minskin blokadaya alınmasını sui-qəsd etdiyini xatırlatdı: "Çevrilişlər təşkil etmək, yüksək vəzifəli məmurlar da daxil olmaqla siyasi sui-qəsd planlarını həyata keçirmək praktikası həddindən artıq çoxdur, bütün sərhədlər artıq keçilib". Buna görə də, iki prezident, Lukaşenkonun fikrincə, hərbi təhdidlərə qarşı mübarizəni gücləndirəcək.

Tam hüquqlu Birlik Dövlətinin siluetini çəkərkən Putin və Lukaşenko da yaxınlaşmaq üçün taktiki addımlar atdılar. Beləliklə, Putin qazla bağlı güzəştə getdi. Belarus üçün qazın qiyməti gələn il artmayacaq və min kubmetr üçün 128 dollar səviyyəsində qalacaq. İnflyasiyaya indekslənməyəcəklər. Bundan əlavə, ölkələr arasında hava nəqliyyatı ilə bağlı bütün məhdudiyyətlər ləğv edilib. Rusiya çətin maliyyə vəziyyətində (NATO ölkələrinin pandemiyası və sanksiyaları səbəbindən) bir müttəfiqinə sponsorluq etməyə davam edəcək. 2022-ci ilin sonuna qədər Moskva Minskə 630-640 milyon dollara qədər kredit verəcək.

Putinlə Lukaşenko arasındakı görüş iki ölkənin inteqrasiya yolunda qəti bir irəliləyiş oldu. Yeni ümumi xətt işarə edildi. Eyni zamanda, Moskvanın Minskin suverenliyinə həssas mövzular qaldırmaması da maraqlıdır. Putin Moskvada Mərkəzi Bankla ortaq valyuta yaratmaq istəyə bilər, amma bu hələ tezdir. Putin tək bir parlament mövzusunda da ehtiyatlıdır və bu məsələni gələcək üçün təxirə salır. Digər tərəfdən, əvvəllər qazın yüksək qiymətlərindən şikayətlənən və hər fürsətdə Belarusun heç vaxt Rusiya ilə vahid bir dövlətə çevrilməyəcəyini xatırladan Lukaşenkanın inteqrasiya impulslarını fərq etməmək olmaz. Dünənki görüşdə Lukaşenko dedi ki, Minsk və Moskva lazım olsa daha da yaxınlaşa bilərlər. ( deyim ki, bu, belarus müxalifətinə bir növ gözdağı verməyə bənzəyir-A.B.)

Əgər əvvəllər Lukaşenko seçicilərinə Rusiyanın Belarusu udmadığı mövzusunda bəhanələr gətirmişdisə, indi Rusiya vətəndaşlarına bəhanə gətirir və bunun qarşılıqlı faydalı bir birlik olduğunu söyləyir: "İnteqrasiyamızın tənqidçilərindən soruşmaq istəyirəm: harada Rusiya Federasiyasının ayağındakı ağırlığı görürsən?! Rusiya və Belarus xalqları üçün pis bir şey yoxdur! Hər şey firavanlığın artması üçün nəzərdə tutulmuşdur".



Ritorika ritorikadır, lakin artıq konkret addımlar atılıb. Son tarix təyin olundu. İlin sonunadək, Rusiya və Belarusiya İttifaqı Dövləti Ali Dövlət Şurasının iclasında 28 birlik proqramının nəhayət təsdiqlənməsi lazım olacaq. Payızın sonuna qədər Putin, ehtimal ki, inteqrasiya mətninin son təsdiqlənməsi üçün Minskə səfər edəcək. Beləliklə, Putin və Lukaşenko Birlik Dövlətinin yaranması yolunda böyük bir səhifə açmağı bacardılar, deməli (?) geriyə dönüş yoxdur...?

***Ağasəf Babayev***
***(Yazı rus saytlarında yer alan materialları əsasında hazırlanıb)***

## "Adların enerjisi xarakterə təsir edir"

***"Adların seçilməsi ilk baxışdan sadə bir məsələ kimi görülsə də, çox mürəkkəbdir". Bunu SİA-ya açıqlamasında sosioloq Əhməd Qəşəmoğlu deyib.***



Sosioloq bildirib ki, adlar cəmiyyətdə mühüm rol oynayır: "Elmin yeni sahələri inkişaf etməkdədir. Bu sahələr adları elmi olaraq dərindən təhlil edir. Hətta nəinki adların, səslərin də özünün müəyyən energetikası var. Torsimer adlanan aparatlar adların və səslərin energetikasını ölçür. İnsana ad veriləndə insan ömür boyu bu adla çağırılır. Bu ad onun psixologiyasında mühüm təsir edir. Təsəvvür edin ki, yeni doğulan uşaq bir neçə gün sonra çağırılan səsə öyrənir və adın enegetikası onu əhatə edir. Bütün ömrü boyu o, bu enegetikaya köklənir. Bu enerji xarakterin formalaşmasına təsir edir. Bu da cəmiyyətdə ovqat yaradır. Qurani-Kərimdə də belə kəlmə var ki, uşaq anadan olanda valideynin ilk işi ona gözəl ad seçməkdir. Gözəl ad dedikdə nəzərdə tutulan insanda gözəl təəssürat yaratmaqdır. Körpə uşağın beyni sürətlə sistemləşir. Bu ad sistemin içərisində rol oynayır. Azərbaycan adlarının çoxu islam dinindən gəlir və türk mənşəli adlar Azərbaycanda üstünlük təşkil edir. Adlar insanların milli şüuruna dərk olunur. Buna görə bəzi adları eşitdikdə insanda öhdəçilik yaranır. Adın insana yüklədiyi vəzifə də var".

***Qönçə Quliyeva***

***Azərbaycanda həyata keçirilən dövlət siyasəti, reallaşan dövlət proqramları, aparılan islahatlar, yeni layihələrin icrası ölkəmizi müasir məkana çevirməklə yanaşı, onun dünyada tanıdılmasına geniş imkanlar açıb. Mövcud inkişaf nəticəsində müasirləşən, modernləşən Azərbaycan innovasiyalar, informasiya-kommunikasiya texnologiyaları, kosmik əlaqələndirmələr ölkəsi kimi dünayda özünəməxsus yer qazanıb. İnformasiya müstəqilliyinin və təhlükəsizliyinin təmin edilməsi, ölkəmizdə kosmik sənayesinin inkişaf etdirilməsi və beynəlxalq kosmik məkana inteqrasiyası qısa bir zamanda böyük uğurlarla nəticələnib.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***QEYD: Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.***



# Azərbaycan kosmos ölkəsinə çevrilib



Sözsüz ki, genişmiqyaslı islahatların davamlı olması, dövlətimiz tərəfindən ayrılan diqqətin məntiqi nəticəsidir ki, Azərbaycan innovativ inkişafa yol açan dövlətə çevrilir. Azərbaycanda İKT-nin inkişafı ilə bağlı ən prioritet sahələrdən biri olan kosmik sənayenin inkişaf etdirilməsi istiqamətində qısa bir zamanda mühüm addımlar atılıb. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, "Hər bir ölkənin uğurlu, dayanıqlı inkişafı üçün informasiya-kommunikasiya texnologiyaları sahəsi həlledici rol oynayacaqdır. Mən buna əminəm. Mən çox şadam ki, biz bu istiqamətdə bütün işləri planlı, məqsədyönlü şəkildə aparırıq. Bütün addımları atırıq ki, ölkəmiz daha da güclənsin, Azərbaycan daha da müasir dövlətə çevrilsin".

### "MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ SÜRƏTLƏ, HƏRTƏRƏFLİ İNKİŞAF EDİR VƏ BİZ ARTIQ KOSMİK KLUBUN ÜZVÜYÜK"

2008-ci ildə "Azərbaycanda kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması", 2009-cu ildə ölkədə "Kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında" Prezident İlham Əliyevin sərəncamları kosmik sənayenin inkişafında mühüm rol oynadı. Reallaşan tədbirlərin davamı olaraq 2010-cu ildə dövlət başçısı tərəfindən "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin təsis edilməsi haqqında Sərəncamı böyük əhəmiyyət kəsb etmiş oldu. Əlbəttə ki, Azərbaycanın və Qafqazın ilk peyk operatoru "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin yaradılmasında əsas məqsəd telekommunikasiya peykinin orbitə çıxarılması, idarə edilməsi və istismarının həyata keçirilməsi idi ki, bu məqsədə də qısa zamanda nail olundu. Azərbaycan həyatında tarixi hadisəyə çevrilən ilk telekommunikasiya peyki "Azerspace-1" və yer səthinin müşahidə peyki "Azersky"in orbitə çıxarılması Azərbaycanın kosmik ölkələr sırasında yer alması ilə nəticələndi. Bununla bağlı Azərbaycan Prezidenti təbrikində bildirmişdir: "Doğrudan da tarixi bir gündür, böyük nailiyyətdir, dövlətimizin böyük qələbəsidir. Bu hadisə onu göstərir ki, müstəqil Azərbaycan dövləti sürətlə, hərtərəfli inkişaf edir və biz artıq kosmik klubun üzvüyük". Əlbəttə ki, bu böyük əhəmiyyətə malikdir. "Azerspace-1" peyki Afrika, Avropa, Mərkəzi Asiya və Yaxın Şərqdə 50-dən artıq ölkəni birləşdirən məkanda mühüm informasiya ötürücüsü roluna malikdir. Mənbələrdə qeyd olunduğu kimi, çəkisi təxminən 3 200 kiloqram olan "Azerspace-1" Malayziyanın "Measat Satellite Systems" şirkəti tərəfindən istifadə olunan və "Azərkosmos" ASC-yə icarəyə verilən 46° Şərq uzunluq dairəsində geostasionar orbitdə yerləşir. Peykimizin istismar müddəti azı 15 il təşkil edir.

Bildiyimiz kimi, "Azersky" peyki ilə dünyanın istənilən nöqtəsinin yüksək ayırdetməli peyk təsvirlərinə çıxışı mümkündür. Məlum olduğu kimi, bu peykin xidmətlərindən müdafiə və təhlükəsizlik, kənd təsərrüfatı, ekologiya və ətarf mühit, xəritəçəkmə, infrastrukturun planlaşdırılması və monitorinqi, kadastr məlumatlarının yenilənməsi kimi sahələrdə istifadə olunur. "Azərspace-1" peyki vasitəsilə Azərbaycanın bütün televiziya və radio kanalları keyfiyyətli yayıma başlayıb. Azərbaycanın ilk telekommunikasiya peyki kommersiya xarakterli və gəlirli bir layihədir. Onun resurslarının 60 faizdən çoxu kommersiya yönümlü istifadə olunur. Xatırladaq ki, peykin gəlirlərinin istismar müddəti ərzində təqribən 650 milyon dolları təşkil edəcəyi nəzərdə tutulub.

"Azerspace-1" peykinin əhatə etdiyi regionlarla əməkdaşlığı gücləndirməyə şərait yaradıb. Artıq "Azerspace -1" peyki vasitəsilə Azərbaycan, türk, ingilis, gürcü, fars, əfqan və digər dillərdə 120-dən artıq televiziya kanalı yayımlanır.

### PEYKİN FƏALİYYƏTİ DÖVRÜNDƏ 450 MLN. DOLLARDAN ÇOX GƏLİR GƏTİRMƏSİ NƏZƏRDƏ TUTULUB

Beş il ərzində Azərbaycan orbitə 3 peyk çıxardı. Üçüncü peykimiz olan "Azerspace-2"in orbitə buraxılması da böyük əks-səda doğurdu. Cənab Prezidentin bildirdiyi kimi, Bizim yolumuz inkişaf yoludur, tərəqqi yoludur və bu gün Azərbaycan dünyada müasir texnologiyaların inkişafında öz dəyərli sözünü deyir: "Azerspace 2" telekommunikasiya peykinin orbitə çıxarılması bizim növbəti tarixi qələbəmizdir. Bundan sonra da Azərbaycan yalnız uğurlar, qələbələr yolu ilə gedəcək". "Azerspace-2" peyki Avropa, Mərkəzi və Cənub-Qərbi Asiya, Yaxın Şərq və Tropik Afrika ölkələrini əhatə edir. "Bu peyklərin çox böyük əhəmiyyəti var. İlk növbədə, Azərbaycan informasiya təhlükəsizliyi baxımından daha da önəmli addım atır", deyən Azərbaycan Prezidenti bildirib ki, bu gün peyklərimiz vasitəsilə Azərbaycan telekanalları dünyaya öz verilişlərini təqdim edə bilirlər: "Bu gün Azərbaycan telekommunikasiya sahəsində xarici tərəfdaşlardan asılılığını tam aradan götürübdür".

Məlumdur ki, Azərbaycanda kosmik sənayenin yaradılması iqtisadi cəhətdən böyük səmərə vəd edir. 2018-ci ilin sentyabr ayında orbitə buraxılan "Azerspace-2" peyki kommersiya istifadəsinə 2019-cu ildən başlanılıb və qısa bir müddətdə - iki il ərzində istifadəsindən 40 mln. ABŞ dolları gəlir əldə edilib. Vurğulayaq ki, layihə 190 mln. dollara başa gəlib. Peykin istismar müddəti isə 20 ildir. Onu da bildirək ki, peykin fəaliyyəti dövründə 450 mln. dollardan çox gəlir gətirməsi nəzərdə tutulub.

Orbitdə özünün 3 peykini çıxaran Azərbaycan bütün dünyada innovasiyalar, informasiya-kommunikasiya texnologiyaları, kosmik əlaqələndirmələr ölkəsi kimi də tanınıb. Əlbəttə ki, bu peyklərin orbitə çıxarılması Azərbaycanda kosmik sənayenin inkişafında uğurlu addımlardar. Dövlət başçısı tərəfindən həyata keçirilən uğurlu siyasətin nəticəsində bütün sahələrdə olduğu kimi, kosmik sənaye də daha inkişaf edəcək və görülən işlər davamlı olacaqdır.

*Nəzakət ƏLƏDDİNQIZI*

Qəzet 1991-ci il
yanvarın 11-dən çıxır

11 sentyabr

Səs

Son səhifə



# Şenol Güneş istefaya göndərildi!



***Futbol üzrə Türkiyə milli komandasının baş məşqçisi Şenol Güneş istefaya göndərilib. Bu barədə Türkiyə Futbol Federasiyasının rəsmi saytı məlumat yayıb. Tərəflər qarşılıqlı razılıq əsasında əməkdaşlığa son qoyub. Hazırda Türkiyə mətbuatı "ay-ulduzlular"ın sükanı arxasına keçəcək mütəxəssis barədə müzakirələrə başlayıblar. Türkiyə mətbuatının yazdığına görə, TFF çox güman ki, daha çox yerli mütəxəssisə üstünlük verəcək.***

Qeyd edək ki, 69 yaşlı mütəxəssis 2019-cu ilin fevralından millini çalışdırırdı. O, 2000 - 2004-cü ildə də yığmaya rəhbərlik etmişdi. Avro-2020-də uğursuz çıxış edən Şenol Güneşin komandası bir neçə gün əvvəl DÇ-2022-nin seçmə mərhələsində Niderlanda 1:6 hesabı ilə uduzub ki, bu da onun istefaya göndərilməsinin əsas səbəblərindən oldu.

# Mobil telefonu yataq otağında saxlamayın

***Mobil telefonlar həyatımızın ayrılmaz aksesuarına çevrilsə də, mütəxəssislər onunla ehtiyatlı davranmağa çağırırlar. Aparılan tədqiqatlar nəticəsində məlum olub ki, mobil telefonlar insan orqanizmini müəyyən dozada şüalandırır və əksər vaxtlar bunun fəsadları özünü göstərir. Ümumiyyətlə, radiasiya ionlaşdırıcı və ionlaşmayan növlərə bölünür. Onlardan ən təhlükəlisi rentgen, ultrabənövşəyi və qamma şüalarıdır. Cihazı ələ götürən kimi orqanizm radiasiyaya məruz qalır, eyni zamanda gözlər və yaddaş tədricən zəifləyir.***

Bakıdakı 20 nömrəli poliklinikanın həkim-terapevti Solmaz Musayeva AZƏRTAC-a deyib: "Televizor və telefona çox baxanlarda uzağı zəif görmə əmələ gəlir. Mobil telefon və planşetlərin əks təsiri illər keçəndən sonra özünü göstərir. Boyun və baş ağrıları, bel və onurğa əyriklikləri əmələ gəlir".

Yuxuya gedərkən əllərində telefon olanlar üçqat şüalanmaya məruz qalırlar. Həkim-terapevt onu da qeyd edib ki, mobil telefondan mümkün olduğu qədər uzaqda durmaq lazımdır: "Xüsusilə yuxuya gedərkən telefon yataq otağından uzaq saxlanılmalıdır, çünki radiasiya beyinə çox mənfi təsir edir, həmçinin onun təsiri özünü yuxu pozuntuları, yorğunluq və halsızlıq şəklində də büruzə verir".

Son 20 ildə müxtəlif ölkələrdə tədqiqatçılar həmin problemlə əlaqədar 29 mindən çox elmi nəşr buraxıb, 1300 təcrübə, 300 epidemioloji tədqiqat aparıblar. Nəticədə məlum olub ki, smartfon ilk baxışda hiss olunmayan, lakin uzun müddətli narahatlıqlar yaradan digər mənfi təsirlərlə zərər verə bilər. Yatarkən ekrandan çıxan mavi işıq dalğaları bədəndəki melotonin istehsalını azaldır. Melotonin isə bioloji hormondur və bir növ axşam yuxusunun xəbərvericisidir. Ekrandakı işıq isə beyinə ötürdüyü siqnallar vasitəsilə yuxu hormonunun miqdarını azaldır.

# B12 vitamini əsəb sisteminin sağlam fəaliyyət göstərməsində mühüm rol oynayır



Sağlam həyat tərzi üçün qida rasionuna müxtəlif vitamin və minerallar daxil etmək lazımdır. B12 vitamini orqanizmimizin yaxşı fəaliyyət göstərməsi üçün zəruri hesab edilən B qrupuna daxil olan 8 həyati vacib vitamindən biridir. B12 vitamini qırmızı qan hüceyrələrinin (eritrositlərin) yaranmasına kömək edir, həmçinin əsəb sisteminin sağlam fəaliyyət göstərməsində mühüm rol oynayır. Bu barədə tibb saytlarında maraqlı məlumatlar yer alıb.

B12 vitamini təbii halda bəzi ərzaqların tərkibində mövcuddur və yəqin ki, artıq siz onları qəbul edirsiniz. Bu vitaminin əmələ gəlməsi üçün ət, balıq, pendir və yumurta, o cümlədən heyvanın qaraciyəri və böyrəyi, molyusklar, siyənək, zənginləşdirilmiş dənli bitkilər, tunes, zənginləşdirilmiş qida mayası, alabalıq, qızılbalıq, süd və süd məhsulları yaxşı mənbə hesab olunur.

İnsanlar müxtəlif və balanslaşdırılmış pəhrizə riayət edərək onlara lazım olan B12 vitaminini tam əldə etmək imkanı qazana bilərlər. B12 vitamininin əlavələrini qəbul edənlərə bunu həddən artıq etmək məsləhət görülmür, çünki bu, zərərli ola bilər. 19-64 yaş arası olan insanlara hər gün təqribən 1,5 mikroqram B12 vitamini tələb olunur.

Vegetarianlar öz pəhrizlərindən lazım olan B12 miqdarını ala bilmir, çünki bu vitamin təbiətdə nə meyvənin, nə də tərəvəz və taxılın tərkibində mövcuddur.

# Qus Hiddink futbola "əlvida" dedi



Qus Hiddink məşqçi karyerasını bitirib. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, 74 yaşlı mütəxəssis "Voetbal International" nəşrinə açıqlamasında deyib: "Koronavirusa yoluxduğum üçün son vaxtlar işləyə bilmədim. Kurasao Futbol Federasiyasının prezidenti ilə danışdım və mənim bir müddət qalmağımı istədi. Karyeramı bitirmək qərarını vermişəm. Yenidən məşqçiliyə qayıdacam? Xeyr".

Hiddink 2020-ci ilin sentyabrından Kurasao yığmasını çalışdırırdı. Niderlandlı mütəxəssis daha əvvəl "Real", "Çelsi", "Fənərbaxça", "Valensiya" kimi klublarda və Rusiya, Türkiyə, Niderland, Avstraliya kimi yığma komandalarda baş məşqçi işləyib.

***Ziya Hikmətoğlu***

**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc və SİA agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**